AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 NOYABR 2018-ci il ÇƏRŞƏNBƏ № 249 (6282) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## H.N.Nəcəfovun Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hüseyn Nizami oğlu Nəcəfov Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il.**

## F.Ş.Abdinbəyovun Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Şamil oğlu Abdinbəyov Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə əsasən **qərara alıram:**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının 11 nəfərdən ibarət aşağıdakı tərkibi təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

**Kollegiyanın üzvləri**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbəri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının rəhbəri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Bakı şəhəri üzrə 1 saylı Regional Bölməsinin rəisi

"Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının Qida təhlükəsizliyi şöbəsinin müdiri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Aparatının İdxal və ixraca nəzarət şöbəsinin müdiri.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun və "Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında Nazirliyin tabeliyində İnnovasiyalar Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

**2.** Müəyyən edilsin ki, Agentlik yerli sahibkarlıq subyektlərinə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasında yardım göstərən və onların transferini təşkil edən, innovasiya yönümlü elmi tədqiqatları dəstəkləyən, innovativ layihələri (o cümlədən startapları) təşviq edən, onları qrant, güzəştli kredit və nizamnamə kapitalına sərmayə (o cümlədən vençur maliyyələşməsi) vasitəsilə maliyyələşdirən, innovasiya təşəbbüskarlığını təbliğ edən publik hüquqi şəxsdir.

**3.** Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

*3.1.* Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Agentliyin nizamnaməsinin və strukturunun təsdiqi;

3.1.2. Agentliyin nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

3.1.3. Agentliyin icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

3.1.4. Agentliyin yenidən təşkili və ləğv edilməsi;

*3.2.* Nazirliyə:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4.** Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Nazirliyin tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və "Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti öz fəaliyyətlərini davam etdirsinlər.

**5.** Nazirlik:

*5.1.* Agentliyin nizamnaməsinin və strukturunun layihələrini, habelə nizamnamə fondunun miqdarı barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*5.2.* bu Fərmanın 2-ci hissəsində göstərilən fəaliyyət istiqamətləri üzrə Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş mexanizmlərin təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*5.3.* Agentliyin yaradılmasından irəli gələn məsələlərin həlli ilə bağlı tədbirlər görsün.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*6.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*6.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*6.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*6.4.* Nazirliyin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun və "Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin balansındakı əmlakın Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Agentliyin balansına verilməsini təmin etsin;

*6.5.* hər il dövlət büdcəsi tərtib edilərkən Agentliyin fəaliyyətinin təmin edilməsi məqsədilə zəruri vəsaitin nəzərdə tutulmasını təmin etsin;

*6.6.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**7.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər bu Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Agentliyə lazımi kömək göstərilməsini və onun müraciəti əsasında zəruri məlumatların təqdim olunmasını təmin etsinlər.

**8.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tikinti işlərinin dayandırılması Qaydası"nda və 534 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin sökülməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 982-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 5, maddə 539; 2017, N 4, maddə 547; 2018, N 7, maddə 1462) ilə təsdiq edilmiş "Tikinti işlərinin dayandırılması Qaydası"nın 1.3-cü bəndinin ikinci cümləsinə "obyektlərinə" sözündən sonra ", habelə reklam qurğularına" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 534 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 5, maddə 540; 2017, N 4, maddə 548) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin sökülməsi Qaydaları"nın 1.1-ci bəndinə "obyektinin" sözündən sonra "(reklam qurğuları istisna olmaqla)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il.**

## Kaliforniyanın Monterey şəhəri Azərbaycan bayrağı ilə bəzədilib

### *Noyabrın 9-u şəhərdə Azərbaycan Dövlət Bayrağı Günü elan edilib*

**ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərində Azərbaycanın Dövlət Bayrağının 100 illiyi qeyd edilib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun təşəbbüsü ilə Monterey şəhərinin mərkəzində yerləşən Alvarado küçəsi Azərbaycan bayraqları ilə bəzədilib.**

Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat veriblər.

Bildirilib ki, noyabrın 9-u Montereydə Azərbaycanın Dövlət Bayrağı Günü elan edilib. Bununla bağlı şəhər meri Klayd Roberson tərəfindən müvafiq bəyannamə imzalanıb.

Ölkəmizin Los-Ancelesdəki baş konsulluğuna göndərilmiş bəyannamədə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il 28 may tarixində müstəqilliyini elan edərək müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı, həmin respublikanın qısa müddətdə böyük sayda mütərəqqi islahatlara imza atdığı, müsəlman dünyasında ilk dəfə qadınlara səsvermə hüququnun verdiyi vurğulanır. Həmçinin bu respublikanın ABŞ və digər demokratik dövlətlər tərəfindən tanındığı qeyd olunur.

Sənəddə bildirilir ki, 1918-ci ilin 9 noyabr tarixində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul edilən göy, qırmızı və yaşıl rənglərdən ibarət üçrəngli bayraq 1991-ci ildə yenidən müstəqilliyini əldə edən Azərbaycanın dövlət bayrağı elan olunub.

Bəyannamədə qeyd olunur ki, ABŞ-ın müttəfiqi və strateji tərəfdaşı olan Azərbaycan beynəlxalq səviyyədə müsəlman, xristian və yəhudilərin birgə sülh və harmoniya şəraitində yaşadığı uğurlu ölkə modeli kimi tanınır. Bundan başqa, Monterey şəhərinin 2011-ci ildə Azərbaycanın Lənkəran şəhəri ilə qardaşlaşdığı diqqətə çatdırılır.




Bəyannamənin sonunda mer K.Roberson şəhər şurası və şəhər əhalisi adından 2018-ci il 9 noyabr tarixini Monterey şəhərində Azərbaycanın Dövlət Bayrağı Günü elan edir və bütün şəhər sakinləri bu bayramı qeyd etməyə dəvət olunur.

Monterey şəhərinin Azərbaycan bayraqları ilə bəzədilməsini əks etdirən qısa videoya bu link vasitəsilə baxmaq olar:

https://youtu.be/wqTCzA8yDfc

**AZƏRTAC**

## Milli maraqlara uyğun siyasət nailiyyətlərin davamlılığını təmin edir

### *Dövlət başçısı deyib: "Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur"*

**Azərbaycan son 15 illik dövrdə hər il uğurla başa vurub və bu möhkəm zəmində yeni ilə doğru yüksək əhval-ruhiyyə ilə gedir. Bu gün ölkəmiz regionda iqtisadi və siyasi sahədə qüdrətli dövlətdir və bütün sahələrdə müasir modern ölkə kimi sürətli inkişaf yolundadır. İstər ölkə daxilində, istərsə xarici əməkdaşlıqda potensialları aşkara çıxarıb dövriyyəyə cəlb etmək istiqaməti ilə irəliləyən dövlət Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır və bu iştirakın əhəmiyyəti daim artır, bundan başqa, Avropa və Asiyanın qovşağında çox mühüm hasilatçı, istehsalçı və nəqliyyat mərkəzinə çevrilib. Bu proses sosial-iqtisadi inkişafa çox güclü stimul yaradıb və bu proses dinamik, həm də yüksək templidir.**

Prezident İlham Əliyev Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasdakı nitqində son 15 ildə əldə edilmiş böyük tarixi uğurlar və bu müvəffəqiyyətin əsasında duran əsas amil barədə deyib: "Bax, budur bizim uğurlu xarici siyasətimiz ki, bu gün daxili inkişafımıza da müsbət təsir göstərir. O ki qaldı, iqtisadi sahəyə, son 15 il ərzində iqtisadi baxımdan Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyat 3,2 dəfə artmışdır və bu artım bu gün davam edir. Təsadüfi deyil ki, cəmi 26 yaşı olan ölkəmiz Davos Dünya İqtisadi Forumunun iqtisadiyyatların rəqabətqabiliyyətlilik hesabatına görə, dünya miqyasında 35-ci yerdədir. Təsəvvür edin, dünyada 200-dən çox ölkə var. Azərbaycan 35-ci yerdədir. Rəqabətqabiliyyətliliyi hesablaması bütün sahələri əhatə edir, təkcə enerji resurslarını yox. Yenə də Davos Forumunun inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksi üzrə hesablamalarına görə, Azərbaycan 3-cü yerdədir. Azərbaycan infrastrukturun səviyyəsinə görə, dünya miqyasında 26-cı yerdədir. Bütün bunları biz yaratmışıq, yorulmaz fəaliyyət nəticəsində, xalq-iqtidar birliyi sayəsində. Ona görə bizim iqtisadi inkişafla bağlı fikirlərimiz çox ümidvericidir və çox müsbətdir".




Xalqımızın azadlıq mücadiləsində, müstəqilliyin möhkəmləndirilməsində, müasir innovativ iqtisadiyyatın bərqərar olmasında, ölkəmizin dünyada yüksək siyasi nüfuz qazanmasında Heydər Əliyev siyasi kursunun inkarolunmaz, mühüm əhəmiyyəti vardır. Ulu öndərin müəyyən etdiyi strategiya ilə irəliləyən Azərbaycan ilbəil yeni dəyişiklərlə daha yüksək mərhələyə qalxır. Ümummilli liderin siyasi məharəti, müdrikliyi, uzaqgörənliyi ona dünya şöhrəti qazandırmışdır. Dünyanın nadir uzaqgörən siyasətçiləri sırasında önəmli yer tutan ulu öndərin strategiyası sayəsində reallaşan özünəməxsus innovativ inkişaf modeli sayəsində ölkəmiz ilbəil yeni nailiyyətlərə imza atmaqdadır. Heydər Əliyevin dövlətimizin rəhbərliyinə qayıdışından ötən 25 illik dövr ərzində bu strategiya özünün səmərəliliyini, müasir tələbata müvafiqliyini, gələcəyə hədəflənmiş istiqaməti təmin etdiyini dəfələrlə təsdiq etmişdir.

İqtisadiyyatında ən müasir elmi-texniki yeniliklər tətbiq edilən ölkədə modern təsərrüfat sahələrinə malik olmaqla rəqabətədavamlı istehsal sahələri yaradılır. Müasir elmi-texniki yeniliklərin tətbiqi insanın əməyini, zehni qabiliyyətini səmərəli istifadə etməyə imkan verir. Modern iqtisadi sahələr rasional əmək sərfinə, bir sözlə, əlverişli iş şəraitini yaratmağa imkanı, həm də keyfiyyətli, dünya standartlarına uyğun rəqabətədavamlı məhsullarla dünya bazarlarına çıxmağa müvafiq səviyyəni təmin edir. Azərbaycanda siyasət məhz bu istiqamətdə aparılır. Mövcud obyektlər ən müasir standartlara uyğunlaşdırılır, hazırlanan layihələr isə modern səviyyədə icra edilir. İstər binalar, istər orada yaradılan şərait, əmək təhlükəsizliyi, istehsal mədəniyyəti əvvəlcədən nəzərə alınır. Dünya və daxili bazarların tələbi öyrənilərək məhsulların yüksək keyfiyyəti və dizaynı əvvəlcədən proqnozlaşdırılır, dəqiqləşdirilir və reallaşdırılır. Bu prosesin davamlı olması üçün isə daim müvafiq islahatlar operativ aparılır. Regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramının son ili başa çatır. Beləliklə, əldə edilən yeni-yeni uğurlar ölkənin nüfuzunu dünyada daha da artırır və siyasi meridianlarda mövqeyini daha da möhkəmləndirir, beləliklə, daha bir uğurlu dövrdə tarixə düşmək üzrədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Dövlət Proqramının bu ilə aid hədəflərinə uğurla çatıldığı barədə deyib: "Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır...

**(davamı 5-ci səhifədə)**

*Azərbaycan Ədliyyəsi - 100*

# Uğurlu təməl üzərində inkişaf edən milli ədliyyə və məhkəmə sistemi

**Noyabr ayının 22-si Azərbaycanda ədliyyə orqanlarının yaranmasının 100-cü ildönümü tamam olur. Şərqdə ilk demokratik, hüquqi və dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin insan və vətəndaş hüquq-azadlıqlarına həssas münasibətinin ali təzahürü kimi formalaşmış milli ədliyyə orqanlarının xalqımızın müstəqillik uğrunda mübarizəsini və onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Cümhuriyyət dövründə ədliyyə və məhkəmə fəaliyyətinə xüsusi əhəmiyyət verilmiş, 1918-ci ilin noyabr ayının 22-də onun əsasnaməsi qəbul edilmişdir.**



Cümhuriyyətin yaradıcıları dövlət quruculuğu istiqamətində sistemli iş apararaq ilk növbədə, ölkədə qanunun aliliyini təmin edən hüquqi təsisatların - hüquq-mühafizə orqanlarının formalaşdırılmasına və parlamentdə ictimai münasibətlər sistemini tənzimləyən qanunların qəbuluna çalışmışlar. Cəzaçəkmə yerlərində aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir. Eyni zamanda Ədliyyə Nazirliyinin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan andlı iclasçılar məhkəməsinin təsis edilməsi haqqında", ADR-in yaranmasından il yarım keçməsi münasibətilə ümumi amnistiya haqqında və digər qanunlar parlamentin müzakirəsinə çıxarılaraq qəbul edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilərək Xalq Ədliyyə Komissarlığı yaradılmış, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

1933-cü ildə məhkəmələrin, prokurorluğun, istintaqın birləşdirilməsi, vahid məhkəmə siyasətinin həyata keçirilməsi, bütün hakimiyyət orqanlarının, təsərrüfat müəssisələrinin, ictimai birliklərin və fiziki şəxslərin hərəkətlərinin qanuniliyini müşahidə etmək məqsədilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmişdir. Komissarlığın səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, Dövlət Prokurorluğuna və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir.

1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə olunmuşdur.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit fəaliyyəti təmin edilmişdir. Nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

Ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra da Azərbaycan ədliyyəsi ulu öndər Heydər Əliyevin diqqətindən kənarda qalmamışdır. 1993-cü ilin iyun ayında xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra ümummilli liderin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmiş, nazirliyin səlahiyyətləri genişlənmiş, cəmiyyətdə rolu artmışdır.

1995-ci ildə ümummilli liderin rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş ilk milli Konstitusiya demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuşdur. Konstitusiyanın qəbulundan sonra respublikamızda məhkəmə-hüquq islahatları ilə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Demokratik inkişaf yolu ilə inamla irəliləyən Azərbaycanın Avratlantik məkana fəal inteqrasiya kursu seçməsi, Əsas Qanunda əksini tapmış müddəaların üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması ədliyyə sistemində əsaslı islahatların aparılmasını, bu orqanın bir sıra funksiyalarının təkmilləşdirilməsini və fəaliyyət dairəsinin genişləndirilməsini vacib məsələlər kimi önə çıxarmışdı. Ulu öndərin təşəbbüsü ilə Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, keçmiş MDB-də ilk olaraq Azərbaycanda istintaq təcridxanaları nazirliyin tərkibinə verilmişdir.

Ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlərin ibtidai istintaqının aparılması, bütün qeyri-tibbi məhkəmə ekspertizalarının həyata keçirilməsi, Azərbaycan Respublikası adından xarici dövlətlər və beynəlxalq təşkilatlarla hüquqi sahədə əməkdaşlıq üzrə müqavilələrin bağlanması və onların icrasının təmin edilməsi, cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, o cümlədən ekstradisiya və digər məsələlərin həlli Ədliyyə Nazirliyinə tapşırılmışdır.

Ölkəmizdə aparılan hərtərəfli islahatların səmərəli iqtisadi sistemin bərqərar olmasına gətirib çıxarması əhalinin hüquq və mənafelərinin daha etibarlı qorunması, onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi zərurətini yaradırdı. 2000-ci ildə iqtisadi və hüquqi proseslərin tənzimlənməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı - Notariat və VVADQ orqanlarında da köklü dəyişikliklər və əsaslı tədbirlər həyata keçirilmiş, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə metodoloji yardımın göstərilməsi Ədliyyə Nazirliyinin funksiyalarına aid edilmişdir.

Ümumilikdə, 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən Ədliyyə Nazirliyinin fəaliyyət dairəsi genişlənmiş, cəmiyyətdəki rolu və əhəmiyyəti artmışdır. Ədliyyə fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparılmış, yeni qurumlar yaradılmış, onların işinin təşkili üzrə zəruri tədbirlər görülmüşdür.

Demokratik dəyərlərin cəmiyyət həyatında getdikcə daha da möhkəmləndiyi, həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyasının yüksək nəticələr verdiyi, siyasi sistemin, vətəndaş cəmiyyəti təsisatlarının möhkəmləndiyi, beynəlxalq təşkilatlarla əməkdaşlığın yeni müstəvidə davam etdirildiyi bir şəraitdə ədliyyə sisteminin davamlı olaraq müasirləşdirilməsi son 15 ildə xüsusi diqqət mərkəzində olmuşdur. Ulu öndərin layiqli siyasi davamçısı - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən dövrdə imzaladığı mühüm fərman və sərəncamlar, Dövlət proqramları ədliyyə sisteminin işinin əhəmiyyətli dərəcədə təkmilləşməsini, keyfiyyətcə yeni dövrün tələbləri səviyyəsində qurulmasını təmin etmişdir.

Xatırlatmaq lazımdır ki, "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanla nazirliyin strukturunda ciddi dəyişikliklər edilmiş, bir sıra qurumların funksiyaları dəqiqləşdirilmişdir. 26 may 2006-cı il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun ədliyyə qulluqçularının fəaliyyət prinsiplərini, bu orqanda işə qəbulun hüquqi əsaslarını müəyyənləşdirən əhəmiyyətli sənədlərdən biri olmuşdur. Qanunla ədliyyə sistemində, onun strukturlarında - idarə və təşkilatlarında, penitensiar xidmətdə qulluqkeçmə qaydaları və şərtləri, ədliyyə qulluqçularının hüquqi vəziyyətinin əsasları müəyyən edilmişdir.

2009-cu il 6 fevral tarixdə təsdiqlənmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" milli ədliyyə sisteminin müasirləşdirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü və ardıcıl tədbirlər sisteminin uğurlu davamı olmuşdur. Proqramın əsas vəzifələri sırasına ədliyyə sahəsində islahatların davam etdirilməsi və bu sahədə inkişafın təmin edilməsi; ədliyyə sistemində və məhkəmələrdə yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinin sürətləndirilməsi, müasir tələblərə cavab verən yeni iş prosesinin təşkil edilməsi; cəzaçəkmə müəssisələrinin fəaliyyətinin müasirləşdirilməsi; məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi; vətəndaşların ədliyyə orqanlarına və məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi məsələləri aiddir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son 15 ildə yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanmışdır. Bu məqsədlə ötən müddətdə ədliyyə sistemi ilə yanaşı, ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər görülmüşdür.

Həyata keçirilən məhkəmə-hüquq islahatlarının əsas hədəflərindən biri də regionlarda yaşayan vətəndaşların qanuni maraq və mənafeyinin ədalət mühakiməsi yolu ilə qorunması mexanizmlərinin təkmilləşdirilməsi olmuşdur. 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərmanı bölgələrdə yaşayan vətəndaşların məhkəmələrə müraciət imkanlarını genişləndirmiş, bu sahədə bir sıra mütərəqqi yeniliklərə imkan yaratmışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn həmin fərman əsasında bölgələrdə yeni apelyasiya və iqtisad məhkəmələri yaradılmışdır.

Xatırlatmaq yerinə düşər ki, həmin fərmana qədər Azərbaycanda yalnız bir Apelyasiya Məhkəməsinin fəaliyyət göstərməsi, ilk növbədə regionlarda yaşayan insanlar üçün ciddi problemlər doğurur, onların qanuni mənafelərinin yüksək səviyyədə təminatına əngəllər yaradırdı. Vətəndaşlar birinci instansiya məhkəmələrinin qərarlarından verdikləri apelyasiya şikayəti ilə əlaqədar uzaq məsafə qət edərək Bakı şəhərinə gəlməyə, əksər hallarda prosesin müəyyən səbəblərdən təxirə salınması ilə bağlı geriyə dönməyə məcbur olurdular. Apelyasiya şikayətlərinin çoxluğu əksər hallarda ədalətli məhkəmə araşdırması apararaq qərar çıxarmaq imkanlarını da məhdudlaşdırırdı. Regionlarda apelyasiya məhkəmələrinin fəaliyyətə başlaması bu sahədə ciddi dönüş yaratmış, vətəndaşların apelyasiya məhkəmələrinə müraciət imkanları asanlaşmışdır.

Məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyə 22 iyun 2010-cu il tarixdə edilmiş dəyişikliklər, habelə məhkəmə sisteminin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixdə imzaladığı fərmanların ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rolu olmuşdur. Bu tədbirlər nəticəsində ölkənin əlavə dörd bölgəsində regional ağır cinayətlər məhkəmələrinin təsis edilməsi, dövlət orqanları tərəfindən insan hüquqlarına ciddi əməl olunmasının təmini məqsədilə ölkə tarixində ilk dəfə olaraq yeddi bölgədə inzibati-iqtisadi məhkəmələrin yaradılması, hərbi məhkəmə sisteminin təkmilləşdirilməsi, habelə hakim ştatlarının sayının daha 25 faiz artırılması xüsusi əhəmiyyət kəsb etmişdir. Regional ağır cinayət, inzibati-iqtisadi və hərbi məhkəmələrin tezliklə fəaliyyətə başlaması üçün qısa müddət ərzində mühüm təşkilati tədbirlər həyata keçirilmiş, 2011-ci ilin yanvar ayından 12 yeni regional məhkəmə fəaliyyətə başlamışdır.

Xüsusi qeyd etmək istərdik ki, son illər ərzində ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin rolu nəzərə alınaraq bu sahədə irimiqyaslı işlər görülür, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan yeni məhkəmə binaları tikilib istifadəyə verilir. Dünya Bankı ilə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində son illərdə rayon məhkəmələri üçün müasir tələblərə cavab verən yeni inzibati binalar inşa edilmişdir. Yeni binaların bir üstün cəhəti də ondan ibarətdir ki, onlar inzibati və ictimai zonalara bölünürlər və hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulmuşdur. Ədliyyə Nazirliyinin icra qrupu, dövlət ittihamçısı və vəkillər ictimai zonadan istifadə edirlər.

Son illər Bakının Yasamal, Sabunçu, Nərimanov rayonlarında, habelə Gəncə, Oğuz, Gədəbəy, Şəki, Qəbələ və İmişlidə yeni məhkəmə kompleksləri inşa edilərək istifadəyə verilmişdir. Bütün bunlar, şübhəsiz, bir başlıca məqsədə - cəmiyyətdə məhkəmə hakimiyyətinə olan inamı artırmağa, ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini yüksəltməyə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" sərəncamı da bu sahədə ötən illərdən başlanmış islahatların uğurlu davamına etibarlı zəmin yaratmışdır. Sərəncam əsasında "ASAN xidmət"in yaradılması vətəndaş məmnunluğuna səbəb olan müasir, sivil və şəffaf xidmətlərin məhkəmə orqanlarının fəaliyyətində də geniş tətbiqinə imkan verir. "Elektron məhkəmə" sistemi vətəndaşların məhkəmələrlə münasibətlərinin daha çevik və işlək mexanizmlər əsasında qurulmasına, işlərə baxılmasında qanunvericiliyin tələblərinə tam riayət olunmasına imkan yaratmaqla, operativliyi və şəffaflığı maksimum dərəcədə təmin edir.

Ölkə üzrə məhkəmələrin 60 faizini əhatə edən bu sistemin tətbiqi ədalət mühakiməsinin səmərəsinin və keyfiyyətinin yüksəldilməsinə xidmət edir. "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə 2017-ci ildə Avropa Şurasının ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək "Ədliyyənin kristal tərəzisi" mükafatına layiq görülmüşdür. "Məhkəmənin Nəbzi - İdarəetmədə İnqilab" layihəsinin əsas mahiyyəti məhkəmə sistemində mütərəqqi elektron idarəetmənin tətbiq olunmasından ibarətdir. Bu sistem toplanan elektron statistik məlumatlar əsasında müxtəlif növ elektron analitik hesabatların hazırlanmasını, məhkəmə və hakimlərin fəaliyyətinin qiymətləndirilməsini və onun məhsuldarlığının müəyyən olunmasını təmin edir.

Qeyd etmək lazımdır ki, dövlətimizin başçısı cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının səmərəliliyinin daha da yüksəldilməsinə xidmət etmişdir. Məlum sərəncam bir daha göstərir ki, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu istiqamətində inamlı tədbirlər həyata keçirən Azərbaycan Prezidenti cənab İlham Əliyev humanizm prinsipini idarəçilikdə daim önə çəkir. Həyata keçirilən sistemli tədbirlər ölkədə ədalət mühakiməsinin yüksək keyfiyyətini, cəzanın tərbiyəvi əhəmiyyətini və səmərəliliyini təmin edir, vətəndaşların hüquq və azadlıqlarının etibarlı qorunmasına, humanizm ideyalarının tam bərqərar olmasına geniş imkanlar açır.

Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə ədliyyə işçilərinə yüksək etimad göstərilərək 22 noyabr tarixi Ədliyyə işçilərinin peşə bayramı günü elan edilmişdir. Bu yüksək etimad hər bir ədliyyə və məhkəmə işçisi tərəfindən dərin minnətdarlıq və iftixar hissi ilə qarşılanmış, Azərbaycan ədliyyə tarixinə və müsbət ənənələrə ehtiramın təzahürü kimi dəyərləndirilmişdir.

***Bu gün fəxrlə deyə bilərik ki, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycan möhkəm təməllər üzərində qurulmuş və müasir dünya tələbləri səviyyəsində fəaliyyət göstərən ədliyyə və məhkəmə sisteminə malikdir. İnanırıq ki, ölkəmizin iqtisadi inkişaf tempinə adekvat olaraq bu sahədə islahatlar bundan sonra da uğurla davam etdiriləcəkdir.***

**Vüqar MƏMMƏDOV,**
**Gəncə Hərbi Məhkəməsinin sədri.**

# Azərbaycan ədliyyəsinin şanlı tarixi

**Azərbaycan ədliyyə sistemi yüz il bundan öncə yaranaraq keşməkeşli, lakin şanlı bir yol keçmişdir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranmışdır. O zaman müstəqilliyə nail olmuş Azərbaycanda ədliyyə sisteminin yaranmasına böyük ehtiyac duyulmuş, ADR elan olunduqdan sonra dərhal Ədliyyə Nazirliyi yaranmışdır.**

Çox çətinliklə olsa da, nazirliyin inzibati binaları qaydaya salınmış, məhkəmə aparatları, hüquq əməliyyatı kitabxanası yaradılaraq altı aylıq kurslar təşkil edilmişdir. 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq olunmuşdur. Hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə Daxili İşlər Nazirliyinin tabeliyində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir. ADR-in yaranmasından bir il yarım keçməsi münasibətilə aministiya haqqında qərar qəbul edilmişdir. Göründüyü kimi qısa zaman kəsiyində ədliyyə sahəsində bir sıra nailiyyətlər əldə olunmuşdur. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, müsəlman şərqində ilk müstəqillik əldə etmiş Azərbaycan Demokratik Respublikası cəmi 23 ay fəaliyyət göstərə bildi. 1920-ci ilin aprel ayında şovinist Sovet Rusiyasının XI ordusu çox çətinliklə əldə olunmuş müstəqilliyi — Azərbaycan Xalq Cümhuriyyətini işğal etdilər. İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilərək Xalq Ədliyyə Komissarlığı yaradıldı. Komissarlığa aşağıdakı səlahiyyətlər verildi: məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması, eləcə də qanunvericilik layihələrinin hazırlanması. 1930-cu ildə bu Komissarlıq ləğv edilərək onun səlahiyyətləri prokurorluq, ali məhkəmə, mərkəzi icraiyyə komitəsinə və başqa orqanlara verildi. 1933-cü ildə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmişdir. 1959-cu ildə isə komissarlıq yenə ləğv edilmişdir.

Ədliyyənin dəfələrlə ləğv edilməsi və yenidən yaradılması onun istər-istəməz normal işləməsinə və ictimaiyyət arasında bu sistemin nüfuzdan düşməsinə səbəb olmuşdur. Lakin 1969-cu ildə xalqımızın xilaskarı Heydər Əliyevin Azərbaycana rəhbər təyinatı ölkədə bütün sahələrin inkişaf və tərəqqisinə zəmin yaratdı. Bütün strukturların hüquq və vəzifələri özünə qaytarıldı. Onların fəaliyyəti üçün münbit şərait yaradıldı. Azərbaycan SSR Ali Sovetinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi təsis olundu. Bununla da əhaliyə göstərilən hüquqi yardımlar və notariat fəaliyyəti, məhkəmə ekspertizaların aparılması və s. əməliyyatların səviyyəsi yüksəldi. Xalqımız ikinci dəfə müstəqilliyə qovuşduqdan sonra ilk illərdə bütün sahələrdə, o cümlədən, Ədliyyə sistemində xoşagəlməz vəziyyət hökm sürürdü. 1993-cü ildə Azərbaycan xalqının israrlı təkidi və tələbi ilə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə hökm sürən anarxiyaya son qoyuldu. Qanunların ölkədə lazımi səviyyədə işləməsi üçün fundamental islahatlar aparıldı. Ədliyyə Nazirliyinin də səlahiyyətləri genişləndirilərək cəmiyyətdə nüfuzu bərpa olundu.

Ulu öndər daima Ədliyyə Nazirliyinə böyük qayğı göstərmişdir. Bunun bariz nümunəsi olaraq 11 noyabr 2000-ci ildə Heydər Əliyevin imzaladığı sərəncamla Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edildi. 22 noyabr Azərbaycan Respublikasının Ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edildi. Hazırda respublika Prezidenti İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində Azərbaycan regionda güclü, dünyəvi, hüquqi əsaslara söykənən inkişaf etmiş, qüdrətli orduya malik olan bir dövlətə çevrilmişdir. Ölkə başçısının tövsiyəsi ilə 2006-cı ildə Ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunmuşdur. 18 aprel 2006-cı il tarixli fərmanla Ədliyyə Nazirliyi haqqında əsasnamə təsdiq edilərək ona Hüquq-Mühafizə Orqanı statusu verilmişdir. Ölkə Prezidentinin 06 fevral 2009-cu il tarixli digər sərəncamı ilə " Azərbaycan Ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" təsdiq olunmuş və icrası təmin olunmuşdur. Ədliyyə sahəsində çalışanlara əmək fəaliyyətlərini normal davam etdirmək üçün maksimum şərait yaradılmışdır. Bu sahədə işə qəbulun şəffaf şəraitdə keçirilməsi təmin olunmuşdur. Əməkdaşların maddi rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Qeydiyyat şöbəsi olaraq biz də yaradılan şəraitə görə məmnunluğumuzu ifadə edərək öz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməyi qarşımıza məqsəd qoymuşuq. Fürsətdən istifadə edərək həmkarlarımı Azərbaycan ədliyyəsinin yüz illiyi münasibəti ilə təbrik edirəm.

**Ruziyyə ALLAHVERDİYEVA,**
**Şəmkir Rayon Qeydiyyat Şöbəsinin rəisi,**
**ədliyyə müşaviri.**

Bakı Metropoliteni - 51

# İnkişafın böyük üfüqləri qarşısında





**Noyabrın 6-da Bakı metrosunun istifadəyə verilməsindən ötən illərin sayı 51-ə çatdı. 51 il bundan əvvəl Bakı metrosunun inşaatçıları yeraltı yolların açarını istismarçılara verdilər. Azərbaycan paytaxtı həm də müsəlman Şərqində yeraltı nəqliyyatı olan ilk şəhər kimi tanındı. Həmin illər əhalisinin sayına görə SSRİ-nin dördüncü şəhəri olsa da, o vaxtlar artıq meqapolislərə çevrilmiş Qahirədən, İstanbuldan, Tehrandan fərqli olaraq, Bakıda metro var idi. Metro Sovet dövründən Bakıya qalan ən qiymətli miras oldu. Bu barədə ümummilli lider Heydər Əliyev daha kəsərli və obrazlı şəkildə belə deyib: "Vətəndaşlarımız, ümumiyyətlə, xalqımız bilməlidir ki, bizim millətimizin əlində nə kimi böyük və nadir bir sərvət var. Bu sərvət müstəqil Azərbaycan dövlətinə yaxın keçmişdən miras qalıbdır. Ancaq eyni zamanda, bu sərvət Azərbaycan xalqının zəhmətkeş insanlarının böyük əməyi, əzmi nəticəsində yaranıbdır və belə bir möcüzəli şəkil alıbdır. Ona görə də Bakı Metropoliteni Azərbaycan xalqının milli sərvətidir. Deyə bilərəm ki, ən dəyərli sərvətidir".**

Bakı Metropoliteninin tikintisində böyük canlanma və inkişaf ümummilli liderimiz Heydər Əliyev respublika rəhbərliyinə gəldikdən sonra başlandı. 1970-ci ildə "Ulduz", 1972-ci ildə "Məşədi Əzizbəyov", "Qara Qarayev" və "Neftçilər" stansiyaları istismara verildi. 1976-cı ildə "Nizami", 1979-cu ildə "Bakmil" stansiyaları ilk sərnişinlərini qəbul etdi. 1985-ci ildə "Elmlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar", "Memar Əcəmi" stansiyaları qapılarını ilk sərnişinlərinin üzünə açdı. 1983-1987-ci illərdə ümummilli liderimiz Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən Bakı metrosunun inkişafına xeyli vəsait ayrılmasına etdiyi kömək nəticəsində 1989-cu ildə "Xalqlar dostluğu" və "Əhmədli" stansiyaları təhvil verildi.

Onun 2002-ci il Bakı Metropoliteninin 35 illiyi münasibətilə Respublika sarayında keçirilən təntənəli yığıncaqdakı tarixi çıxışı metropolitenin gələcəyi barədə, sözün həqiqi mənasında, bir proqram sənədi idi: "Biz metro inşaatını davam etdirməliyik... Məndə hələ o illərdən metronun tikintisinin birinci, ikinci, üçüncü növbələrinin cədvəli var. Onu o vaxtdan saxlamışam. İndi onları təzələyəcəyik. İnşallah, qarşıdan gələn 3-4 ildə Azərbaycanın gəlirləri xeyli artacaqdır. Mən sizə bildirmək istəyirəm ki, bu gəlirlərdən Bakı metrosunun inşasının davam etdirilməsi üçün mütləq istifadə etmək lazımdır. Mən bunu edəcəyəm və güman edirəm ki, məndən sonra gələn insanlar da bunu mütləq etməlidirlər".

Həmin vaxtdan keçən 16 ildə Azərbaycan Prezidenti İlham Əliyev böyük sələfinin ona bəslədiyi ümidləri doğrultdu. Azərbaycanda bütün sahələrdə olduğu kimi, metronun da inkişafında ulu öndərin arzuları həyata keçməyə başladı.

2006-cı ildə dövlət başçısının Şimal sahəsində yarımçıq qalmış inşaat işlərinin davam etdirilməsi üçün ümumilikdə ayırdığı 16.6 milyon manat vəsait hesabına 2008-ci ilin oktyabrında "Nəsimi", ondan bir il sonra 2009-cu ilin dekabrında "Azadlıq prospekti" və 2011-ci ilin iyun ayında "Dərnəgül" stansiyalarının tikintisini başa çatdırmaq mümkün oldu. Dövlət başçısının metronun istismarı sahəsində çalışan insanların əməyinə verdiyi qiymət onun Bakı Metropoliteni işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında 2008-ci ilin avqust ayında imzaladığı sənəddə öz əksini tapdı. Həmin sərəncamla metropolitençilərin aylıq əməkhaqqı həmin ilin sentyabrından 25 faiz artırıldı.

Bakının yeraltı yollarının inkişafı üzrə Dövlət Proqramının qəbul olunması, yeraltı yolların konseptual inkişaf sxeminin təsdiq edilməsi ümummilli lider Heydər Əliyevin Bakı Metropoliteninin gələcəyi barədə verdiyi tövsiyələrin həyata keçirilməsi üçün Prezident İlham Əliyev tərəfindən atılan son dərəcə əhəmiyyətli bir addım oldu.

Perspektiv plana əsasən, Bakı metrosunda 84 kilometr yolun, 53 yeni stansiyanın tikintisi nəzərdə tutulurdu və onlardan ikisi - 2016-cı il aprelin 16-da istifadəyə verilən Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarıdır. Onların davamı kimi, layihədə adı "B-3" kimi qeyd edilən stansiyada bu günlər avadanlıqlar quraşdırılır, divar və döşəmələrə üzlüklər vurulur, yolun çəkilişi davam edir. Stansiyanın gələn ilin sonuna kimi istifadəyə verilməsi planlaşdırılır.

Metropolitenin inkişafı sahəsində qarşıya qoyulan nəhəng vəzifələrin icrası ilk növbədə Azərbaycan iqtisadiyyatının müasir inkişaf modellərinə uyğun təməllər üzərində qurulmalı idi. Dövlət başçısının iqtisadiyyatın inkişafında strateji niyyəti, qarşıya qoyduğu vəzifələr onun bu sözlərindən aydın görünür: *"Bu gün yeni texnologiyalar tətbiq olunur. Biz Azərbaycanda, Bakıda bu texnologiyalardan istifadə etməliyik. Əvvəlki təcrübə çox qiymətlidir. Ancaq bugünkü təcrübə, əlbəttə ki, həm işlərin daha da böyük səmərə ilə görülməsinə xidmət göstərəcək, həm də maksimum keyfiyyət təmin olunacaqdır".*

Qlobal inkişafın şərtləri və tələbləri daxilində ölkədə aparılan islahatların bir təzahürü də 2014-cü il fevralın 27-də ölkə başçısının sərəncamı ilə Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə səhmləri dövlətə məxsus "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması oldu. Yeni rəhbərliyin qarşısında bazar iqtisadiyyatının tələblərinə uyğun, dünya təcrübəsini öyrənməklə müasir standartları tətbiq etmək çevikliyinə, texnoloji yeniləşməni innovativ düşüncə tərzi həddinə çatdırmaq bacarığı ilə idarə olunan müəssisə yaratmaq vəzifəsi qoyuldu. İlk növbədə, müstəqillik dövrünün ən böyük metro layihəsinin yerinə yetirilməsi sahəsində inqilabi dəyişikliklər edilməli idi. Qısa zaman kəsiyindəki fəaliyyəti ilə "Bakı Metropoliteni" QSC-nin rəhbərliyi dövlət başçısının etimadını doğrultdu. Metronun yeni xəttinin ilk iki stansiyası 2 il sonra istifadəyə verildi. Bu, tunelqazma texnikasının ən son nümunələrindən, stansiyaların tikintisində yeni metod və üsullardan, texnologiyalardan, maşın və mexanizmlərdən istifadə etmək nəticəsində mümkün oldu. Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları şəhərin gələcək inkişaf tələblərinə müvafiq olaraq, 7 vaqonluq qatarların daxil olması üçün nəzərdə tutulmuş 144 metrdən az olmayan uzunluqda platformalardan ibarətdir. Əhalinin sosial həssas təbəqəsinin maraqları nəzərə alınmaqla, liftlər və uzun keçidləri olan "Avtovağzal" stansiyasında travolatorlar quraşdırılıb. Gələcəkdə xəttin inşası davam etdirildikcə, idarəetmə sistemində ən müasir SCADA və qatar hərəkətinin təşkilində CBTC sistemləri quraşdırılacaq, bu istiqamətdə işlər bu gün də aparılır.

Yeni xətlərdə bütünlüklə ən müasir dünya təcrübəsi tətbiq ediləcək yeniliklər çərçivəsində yollar beton bloklar üzərində salınır. Bu məqsədlə metropolitenin mövcud infrastrukturundakı dəmir-beton konstruksiyaları sahəsi tamamilə əsaslı şəkildə yenidən qurulub və müasir standartlara uyğun ən müasir səviyyəyə çatdırılıb. Yeniliyin tunel yollarında tətbiqi praktikasının mənimsənilməsi məqsədilə "Nərimanov" elektrik deposunda qatarların təmirdən sonra sınaqdan keçirilməsi üçün inşa edilən xüsusi təyinatlı yolda bu bloklardan istifadə edilir.

2014-cü il mayın 12-də Fransa Prezidenti Fransua Ollandın Bakıya rəsmi səfəri çərçivəsində hər iki dövlət başçısının iştirak etdiyi biznes-forumda "Bakı Metropoliteni" QSC-nin rəhbərliyi ilə Fransa tərəfdaşları arasında 5 anlaşma memorandumunun imzalanması yeni xətlərin idarə olunmasında, hərəkətin təşkilində ən müasir sistemlərin tətbiqinə geniş imkanlar açdı. Bu, eyni zamanda metropolitenin yeni xətlərinin lokomotiv parkının müasir tələblər səviyyəsinə çatdırılmasını, ən əsası isə insan resurslarının məhz yerli kadrlar əsasında qurulması üçün müasir tədris sistemlərinin tətbiqini də nəzərdə tutur.

2015-ci il aprelin 16-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə metropolitendə, xüsusən də yeni xətlərdə istismar olunacaq üç yeni nəsil qatarlarının istismara verilməsi bu layihələrin ilk uğurları oldu. Avtoidarəetməyə keçid imkanına malik olan bu qatarlar kondisionerləşdirmə, mikroiqlim tələblərinə cavab vermə, müasir elektron və informasiya sistemləri və kompüter idarəetməsinin təchizatı ilə yanaşı, "Bakı Metropoliteni" QSC-nin texniki-iqtisadi əsaslandırmalarla irəli sürdüyü bir sıra təklifləri nəzərə alınaraq istehsal olunmuşdu. Bu tələblər sırasında vaqonlarda bir-birinə keçid imkanlarının olmasını, tutacaqların yerli şəraitin tələblərinə uyğun quraşdırılmasını diqqətçəkən amil kimi qeyd etmək olar.

Fransanın "Thales" şirkəti ilə əməkdaşlıq inkişaf etdirilir. Gələcəkdə yeni xətlərdə tətbiq olunacaq SCADA idarəetmə sistemləri və dispetçer mərkəzləşməsi, eləcə də qatarların hərəkətinin müasir radiokanal idarəetməsi olan CBTC sistemləri ilə təşkili baxımından əhəmiyyətli layihələr işlənir. Eyni zamanda yeni sistemlərlə işləyə biləcək kadrların hazırlığı məsələsi də nəzərə alınıb. Bağlanmış müqaviləyə əsasən bu şirkətin İstanbulda və Kanadanın Toronto şəhərindəki tədris mərkəzində təlim-tədris və təcrübə prosesinə cəlb edilmiş metropolitençilər orada öyrəndiklərini yerli mütəxəssislərlə bölüşürlər.

Metropolitenin perspektiv inkişafı planında mövcud xətlərin də müasir texnologiyalarla təmin edilməsi, hərəkətin təşkilinin təkmilləşdirilməsi, stansiyalarda təmir-bərpa işlərinin aparılması da nəzərdə tutulmuşdur. Metropolitendə həyata keçirilən yeniliklərin böyük bir hissəsi də bu sahəyə aiddir. 2015-ci il dekabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə daha bir dərin özüllü stansiyanın - "Elmlər Akademiyası"nın ikinci giriş-çıxışı açılıb. Bu müddətdə "28 May" stansiyası da tamamilə yenidən qurulub. "Elmlər Akademiyası" stansiyasının, eləcə də "20 Yanvar", "İnşaatçılar" stansiyalarında eskalatorların yeni nəsil analoqları ilə dəyişdirilməsi zamanı vestibüllərdə yenidənqurma işləri aparılıb. "Neftçilər" və "Qara Qarayev" stansiyalarının keçidləri və vestibülləri, "İnşaatçılar", "Nəriman Nərimanov", "Gənclik", "Xalqlar dostluğu" stansiyalarının keçidləri büsbütün yenilənib. "Nizami" stansiyasının orta zalı və platformaları da görkəmini tamamilə dəyişib. Stansiya pilonları davamlı inşaat materiallarından istifadə olunmaqla təmir olunub, Nizaminin ölməz "Xəmsə"si mövzusunda işlənmiş pannolar bərpa edilərək, yenidən ilkin görkəminə qaytarılıb.

Bu il iyun ayının 7-də "Sahil" stansiyası əsaslı şəkildə təmirdən sonra, yenilənmiş eskalatorlarla istismara qaytarılıb. Orada müddəti başa çatmış 3 eskalatorun əvəzinə 4 ədəd yenisi quraşdırılıb. Hazırda genişmiqyaslı təmir işləri "Xətai" stansiyasında aparılır. Orada da eynilə 3 köhnə eskalator 4 ədəd yenisilə əvəzlənəcək.

İndi yeraltı saraylar, onların keçidləri 5 il əvvəl gördüyümüz bazar lövhələrindən uzaqdır. Bir vaxtlar ticarət köşkləri ilə zəbt edilmiş keçidlər sərgi qalereyalarına çevrilib. "Nəriman Nərimanov", "Gənclik", "Memar Əcəmi" stansiyalarında müxtəlif mövzulara həsr olunmuş fotosərgilər nümayiş etdirilir.

Lokomotiv təsərrüfatında aparılan yeniliklərin nəticəsi isə özünü qatarların texniki vəziyyətində göstərir. Son illərdə qatarların xəttə öz işini sona qədər başa vurmadan nasazlığa görə depoya qayıtması hallarının sayı 4 dəfə azalıb.

Yeniliklərdən bəhs edərkən, diaqnostika kompleksini, onun metro infrastrukturunun yoxlanılmasına gətirdiyi yeniliyi qeyd etməmək mümkün deyil. 2015-ci ildə Azərbaycan Prezidentinin iştirakı ilə təqdim olunan kompleks həmin ilin dekabrında Moskvada mötəbər beynəlxalq konfransda "dünyada analoqu olmayan" kimi qiymətləndirilib və bir çox dünya metropolitenlərinin diqqətini cəlb edib.

Bakı metrosu son 4 ildə böyük miqyaslı yeniliklərin məkanına çevrilib. Bu, çoxminli əmək kollektivinin fədakar əməyi sayəsində əldə edilən çox böyük uğurdur. Paytaxt metrosu inkişafın böyük üfüqləri qarşısındadır, yaxın gələcəkdə yeraltı yollarımızdan daha böyük uğurların, zəfər sədalarının şahidi olacağıq.

**"Respublika".**

## AZAL və KPMG Azərbaycan və Avropa arasında "Open Skies" layihəsini müzakirə etdilər

**"AZAL"ın prezidenti Cahangir Əsgərov KPMG Azerbaijan şirkətinin baş menecerləri Fərid Baxşıyev və Andrey İvanovla görüşüb.**

Danışıqların əsas mövzusu Azərbaycan və Avropa arasında "Open Skies" müqaviləsinin təfərrüatları olmuşdur. Azərbaycan hökumətinin sifarişi ilə KPMG şirkəti bu layihə üzrə məsləhətçi rolunda çıxış edir.

Görüş zamanı Cahangir Əsgərov "AZAL" Avropa ilə "Open Skies" müqaviləsinin imzalanmasının nəticələrindən ehtiyatlanır" fikrinə münasibət bildirərək demişdir: "Mən rəsmən bəyan edirəm ki, hər hansı aviaşirkət üçün Azərbaycana reyslərin yerinə yetirilməsi ilə bağlı heç bir məhdudiyyət yoxdur. Hətta vurğulamaq istərdim ki, xarici daşıyıcılara hava məkanı azadlığı ilə bağlı geniş kommersiya hüquqları verilir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan azsaylı ölkələrdən biridir ki, xarici aviaşirkətlərə beşinci (Bakıdan keçərək tranzit), hətta ən yüksək səkkizinci (ölkə daxilində reyslər yerinə yetirmək hüququ) hava sərbəstliyi hüququ verir. Azərbaycanın hava limanları bütün aviaşirkətlər üçün açıqdır, biz hava daşımaları bazarımızdakı bütün yeni aviadaşıyıcıları salamlayırıq".

KPMG şirkətinin baş meneceri Fərid Baxşıyevin sözlərinə görə, "Open Skies" müqaviləsinin aviasiya sənayesinə təsirinin müəyyənləşdirilməsi üzrə beynəlxalq təcrübənin geniş təhlili aparılmış, bu layihənin mümkün nəticələrinin yumşaldılması üçün təlimatlar, habelə yol xəritəsi hazırlanmışdır. Onun sözlərinə görə, bu gün AZAL aviaşirkəti innovasiya, texnologiya və beynəlxalq standartların tətbiqi sahəsində böyük nailiyyətlər əldə etmişdir və mülki aviasiya Azərbaycanın qeyri-neft sektorunun əsas seqmentlərindən biri sayılır.

Həmçinin qeyd olunmuşdur ki, "Open Skies" müqaviləsinin imzalanmaya hərtərəfli hazırlanması və ratifikasiya olunması üçün Avropa ölkələrinə 10 ilə yaxın müddət lazım olmuşdur.

Danışıqların yekunlarına əsasən Tərəflər KPMG şirkəti tərəfindən hazırlanmış yol xəritəsinin tətbiqi üzərində birgə fəaliyyəti davam etdirmək barədə razılığa gəlmişlər. Həmçinin risk menecmenti, investisiya strategiyası, müəssisələrin kapitallaşdırılmasının qiymətləndirilməsi sahəsində KPMG şirkəti ilə əməkdaşlıq imkanları nəzərdən keçirilmişdir.

Qeyd edək ki, hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu 50-dən çox istiqamət üzrə 30-dan artıq aviaşirkətə xidmət göstərir. 2018-ci ilin doqquz ayı ərzində paytaxtın hava limanı 3,49 milyon sərnişinə xidmət göstərmişdir (ötən ilin analoji göstəricisindən 10% çoxdur). Yeni reyslərin açılması nəzərə alınmaqla 2020-ci ilin yekunları üzrə bu göstəricinin ildə 7 milyon sərnişinədək yüksəldilməsi prioritet vəzifələrdən biridir.

KPMG audit və konsaltinq sahəsində peşəkar xidmətlər göstərən və "Böyük Dördlüy"ə daxil olan dünyanın ən böyük şəbəkələrindən biridir. KPMG-nin 155 ölkədə nümayəndəlikləri mövcuddur və 150 mindən çox əməkdaşı vardır.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

## "Xalq Əmanəti" – Ələkbər Rzaquliyev




Xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması missiyasını hər zaman uğurla həyata keçirən Xalq Bank ASC-nin "Xalq Əmanəti" layihəsində bu dəfə Əməkdar rəssam, görkəmli qrafika ustası Ələkbər Rzaquliyevin həyat səhifələri vərəqləndi. Ömrünün 25 ilini Arxangelsk, Solovki, Altayın soyuq, qorxunc, amansız, ölüm saçan düşərgələrində keçirməyə məhkum olan, lakin həyat eşqi bir an belə sönməyən, yaşayıb-yaratmaq həvəsi ilə həyata tutulan rəssamın həyatından danışan bu səhifələr zəngin, dolğun bir ömür kitabına çevrildi - "Xalq Əmanəti" - Ələkbər Rzaquliyev...

Xalq Bankın "Xalq Əmanəti" layihəsinin on yeddinci nəşri olan, Azərbaycan milli qrafika sənətinin sütunlarından biri, əməkdar rəssam Ələkbər Rzaquliyevin həyat və yaradıcılığına həsr olunmuş kitabın təqdimat mərasimində sənət adamları, rəssamın yaxın dostları, ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər. Tədbiri giriş sözü ilə Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov açaraq dedi: "Milli qrafika sənətinin formalaşmasında müstəsna rolu olan Ələkbər Rzaquliyev zəngin sənət yolu keçmişdir. 53 yaşında azadlığa çıxıb yeni doğulmuş uşaq kimi həyata atılan rəssam ömrünün qalan hissəsini linoqravüra texnikasını öyrənməyə həsr etmişdir. Bu illərdə o, "Köhnə Bakı", "Tələbəlik illəri", "Azərbaycan balıqçıları" silsilələri, Solovki adalarına, doğma vətəninə, onun gözoxşayan mənzərələrinə, öz müasirlərinə çoxsaylı əsərlər həsr etmişdir. Rəssamın "Köhnə Bakı" silsiləsi XX əsrin əvvəllərini, insanların yaşayış və məişətini əks etdirən ən müfəssəl panoramıdır. Bu silsilədən olan əsərlər, ümumiyyətlə, Ə.Rzaquliyevin linoqravürləri Bakı və Moskvada keçirilən fərdi sərgilərlə yanaşı, dünyanın bir çox ölkələrində təşkil olunan qrup sərgilərdə nümayiş edilmiş, böyük tamaşaçı rəğbəti qazanmışdır. Rəssamın sənəti bu gün də təkcə həmvətənləri tərəfindən yüksək qiymətləndirilmir, ölkəmizə gələn xarici qonaqlar da sənətkarın estamplarını həvəslə əldə edirlər. Ələkbər Rzaquliyevin yaratdığı əsərlər Azərbaycan xalqının mədəniyyətini təcəssüm etdirən ən dəyərli nümunələrdir".

Xalq rəssamı Tofiq Ağababayev də rəssamın həyat və yaradıcığından danışdı: "Ələkbər Rzaquliyev vətənə, doğma torpağa möhkəm tellərlə bağlı olan sənətkarlardan idi. O, İçərişəhərdə dünyaya göz açmış, ilk təhsilini Bakıda almış, Moskva şəhərində isə Ali Bədii-Texniki Emalatxanalarında təhsilini davam etdirmişdi. Bu təhsil ocağı sənətin müxtəlif üslub və istiqamətlərini dərindən öyrənmək üçün əvəzsiz məkan idi. Fəallığı ilə seçilən, təbiətcə ünsiyyətcil Ə.Rzaquliyev tezliklə müəllim və tələbə kollektivinin hörmətini qazanmışdı. O, Moskvada əsərlərini sərgiləyən ilk azərbaycanlı rəssam idi. Öyrəndiklərini gənc həmvətənləri ilə bölüşür, sənətdə onlara dəstək olmağı özünə borc bilirdi. Bakıda yerli rəssamların sərgilərinin təşkilində fəal iştirak edir, öz işlərini də nümayiş etdirirdi. O illərdən cəmi iki əsəri - Azərbaycan Milli İncəsənət Muzeyində qorunub saxlanılan "Azərbaycanlı qadın" və "Pəhləvanlar" rəsmləri günümüzə gəlib çatmışdır. Bu iki rəsm və bir neçə akvareldən başqa rəssamın bütün boyakarlıq işləri həmişəlik itirilmişdir. Lakin bu gün əlimizdə olan əsərləri sənətkarın geniş, zəngin yaradıcılığından danışmaga kifayət edir".



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, xalça muzeyinin direktoru Şirin Məmmədova, xalq rəssamı Arif Hüseynov da çıxış edərək amansız taleyin istedadlı bir gəncin qarşısında açılan üfüqləri necə tar-mar etdiyindən, Ələkbər Rzaquliyevin məşəqqətli həyatından, ömrünün ən gözəl çağlarını, sağlamlığını itirsə də yaşayıb-yaratmaq eşqini itirməyən rəssamın sənət yolundan danışdılar.

Sonda rəssamın oğlu Aydın Ələkbərov atası ilə bağlı xatirələrindən danışaraq dedi: "O, hər zaman vaxt darlığını hiss edərək itirilmiş illərini, qaçırılmış məqamları geri döndərmək, illərlə düşündüyü planları həyata keçirmək, yaddaşının dərinliklərində qoruyub saxladığı təsvirlərin hamısını kağıza köçürmək üçün tələsirdi. Emalatxanasında 15-16 saat yorulmadan işləyir, gördüklərini, yaşadıqlarını tamaşaçıya ötürmək, onunla bölüşmək istəyirdi. Bu gün "Xalq Bank"ın "Xalq Əmanəti" layihəsi Ələkbər Rzaquliyevin bu istəyini, bu arzusunu sözün əsl mənasında həyata keçirdi. Onun həyat yolunu, sənət yolunu onu sevənlərlə bölüşdü".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Azərbaycan ədliyyəsinin yüz illiyinə həsr olunmuş “dəyirmi masa”

**Noyabrın 3-də “Park İNN” otelində Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının təşkilatçılığı ilə Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018) ilə bağlı “dəyirmi masa” keçirilmişdir. Tədbir iştirakçıları öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin və görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın məzarını ziyarət edərək, əklillər qoymuşlar. Yığıncağı giriş sözü ilə Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov açaraq “dəyirmi masa”nın əhəmiyyətindən söz açdı.**



Bildirdi ki, ötən dövrə nəzər salanda Ədliyyə Nazirliyinin ölkəmizin hüquq sisteminin inkişafında əvəzsiz rolunun bir daha şahidi oluruq. Təsadüfi deyil ki, müstəqil Azərbaycan dövlətinin Ədliyyə Nazirliyi ilk dəfə 1918-ci ilin may ayının 28-də — Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün yaradılmış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin ilin noyabrın 14-də demokratik prinsiplərə əsaslanan məhkəmə sisteminin yaradılmasını nəzərdə tutan Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmiş, ədliyyə sahəsində və məhkəmə idarəçiliyində bir sıra qərarlar qəbul edilmiş, qanunlar hazırlanmışdır. Ədliyyə Nazirliyinin dövlətin yaradıldığı gün təsis edilməsi milli dövlət quruculuğunda ədliyyə sisteminə xüsusi əhəmiyyət verilməsinə dəlalət edir.

1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan edərək ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqilliyimizi bərqərar etmiş, ölkəmizdə demokratik hüquqi dövlət qurulmuş, ictimai-siyasi həyatın bütün sahələrində mütərəqqi islahatlar aparılmaqla davamlı inkişafa nail olunmuşdur. Beləliklə, ölkəmizdə beynəlxalq standartlara cavab verən qanunvericilik bazası yaradıldı, demokratik prinsiplərə əsaslanan yeni məhkəmə sistemi təsis edildi, ədliyyə orqanlarının səlahiyyətləri genişləndirildi və onun qarşısında yeni vəzifələr qoyuldu, şəffaf prosedurlar əsasında peşəkar hakim və ədliyyə korpusu formalaşdırıldı.

Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində nazirliyin cəmiyyətdə yeri və rolu artmış, ona hüquq-mühafizə orqanı statusu verilmişdir. Bu gün geniş səlahiyyətlərə malik olan Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri, onun qarşısında duran mühüm vəzifələrin miqyası ciddi şəkildə genişlənmişdir.

Ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları təkmilləşdirilmiş, 2006-cı ildə ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq cəmiyyətdə mühüm rolu təsbit edilmiş, ona hüquq-mühafizə orqanı statusu verilmişdir. Həmçinin, ölkə Prezidenti tərəfindən 2006-cı ildə “Ədliyyə orqanlarının inkişafı haqqında”, Məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi barədə proqram xarakterli fərmanların imzalanması, dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Məhkəmə-Hüquq Şurası haqqında” qanunların qəbul olunması Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmuşdur.

Bu gün cəmiyyətdə yüksək nüfuz və etimad qazanmış Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun bilavasitə təşəbbüsü və ciddi səyləri ilə ədliyyə və məhkəmə-hüquq islahatları sahəsində əhatə etdiyi nailiyyətlər ölkəmizdə və beynəlxalq miqyasda yüksək dəyərləndirilir.

Ə.Cəfərov daha sonra qeyd etdi ki, həyata keçirilən islahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər görüldü, Ədliyyə Nazirliyinin üzərinə yeni mühüm vəzifələr qoyuldu. Ölkəmizdə insan haqlarının əsl müdafiəsinə xidmət edən müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına xüsusi diqqət yetirilərək, 2000-ci ildə ilk dəfə hakimlərin test üsulu ilə seçimi keçirildi, həmin ilin sentyabr ayından isə yeni üçpilləli məhkəmə sistemi fəaliyyətə başladı. Görülmüş tədbirlər nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan inkişaf yoluna qədəm qoydu, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün onlarla normativ sənədlər qəbul edildi.






1997-ci ildə qəbul edilmiş Məhkəmələr və hakimlər haqqında qanunla üçpilləli müstəqil məhkəmə sistemimiz təsbit olunmuş, hazırlıqlı və peşəkar hakimlər korpusunun formalaşdırılması məqsədilə 1 dekabr 1998-ci il tarixdə Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə-Hüquq Şurası yaradılmış və ilk dəfə olaraq hakimlərin test üsulu ilə seçimi qərara alınmışdır. Bununla da, ölkəmizdə məhkəmə hakimiyyətinin idarə edilməsində yeni bir institutun formalaşdırılması istiqamətində mühüm addım atılaraq bugünkü Məhkəmə-Hüquq Şurasının əsası qoyulmuş, həm də məhkəmə hakimiyyətinin gələcək inkişaf strategiyası müəyyən edilmişdir.

2000-ci ildə hakimlərin seçimi üzrə keçirilmiş şəffaf müsabiqə nəticəsində əvvəlki hakim korpusu 60 faizə qədər təzələnmiş, həmin ilin sentyabr ayından əvvəlkindən prinsipcə köklü surətdə fərqlənən üçpilləli məhkəmə sistemi fəaliyyətə başlamışdır.

Təbii ki, demokratik inkişaf, ölkəmizin analoqu olmayan sürətli iqtisadi tərəqqisi, yeni ictimai münasibətlərin formalaşması məhkəmə fəaliyyətinin daha da təkmilləşdirilməsi üzrə islahatları şərtləndirmişdir.

Bununla əlaqədar insan haqlarının qorunmasında məhkəmə fəaliyyətinə böyük əhəmiyyət verən ölkə Prezidenti cənab İlham Əliyevin məhkəmə sisteminin beynəlxalq norma və prinsiplərə uyğun daha da təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına əsasən bu sahədə ardıcıl tədbirlər həyata keçirilmişdir. İlk növbədə məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazasının Avropa Şurası ekspertləri ilə birgə ətraflı tədqiq edilməsi məqsədilə Azərbaycan-Avropa Şurası birgə işçi qrupu yaradılmış, gərgin və intensiv müzakirələr aparılmış, əhatəli Fəaliyyət Planı hazırlanaraq həyata keçirilmişdir. Bu zaman Avropa Şurası Nazirlər Komitəsinin Hakimlərin müstəqilliyi, səmərəliliyi və roluna dair 12 saylı (1994) Tövsiyəsi, Hakimlərin statusu haqqında Avropa Xartiyası (1998), Avropa Hakimlərinin Məşvərətçi Şurasının Məhkəmələrin müstəqilliyi və dəyişməzliyinə dair standartlarla əlaqədar 1 saylı (2001) rəyi diqqət mərkəzində saxlanılmışdır.

Görülmüş tədbirlər nəticəsində ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə hakimiyyətinin müstəqilliyinə əlavə təminatların müəyyən olunmasını nəzərdə tutan yeni qanunvericilik layihələri hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirildikdən sonra qəbul olunmuşdur. 2004-cü ilin sonunda məhkəmələr və hakimlər haqqında qanunun əsaslı şəkildə yeniləşməsi, Məhkəmə-Hüquq Şurası haqqında xüsusi qanunun qəbul edilməsi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynamışdır. Bu qanunlarda ilk dəfə olaraq hakimlərin müddətsiz təyinatı, onların fəaliyyətlərinin qiymətləndirilməsi qaydası təsbit olunmuşdur.

İnsanlara məhkəməyə müraciət üçün əlverişli şərait yaradılması ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində ən mühüm addımlardan biridir. Bununla əlaqədar 19 yanvar 2006-cı il tarixli fərmanla ölkəmizdə yeni regional məhkəmələrin yaradılması xüsusi qeyd olunmalıdır.

Belə ki, bölgələrdə yaşayan insanların apelyasiya şikayətləri ilə bağlı Bakı şəhərində yerləşən və yurisdiksiyası bütün ölkəyə şamil olunan respublika apelyasiya və iqtisad məhkəmələrinə müraciətlərinin çətinliklər yaratması nəzərə alınaraq, həmin məhkəmələrin əvəzində bütün bölgələri əhatə edən 6 regional apelyasiya, habelə regionlarda əlavə olaraq 3 yerli iqtisad məhkəməsi təşkil edilmişdir.

Bu sahədə tədbirlər bununla bitməmiş, 2010-cu ildə bütün respublika üzrə vahid olan və Bakı şəhərində fəaliyyət göstərən ağır cinayətlər məhkəməsinin əvəzində ölkənin bölgələrində yeni regional ağır cinayət məhkəmələri yaradılaraq onların sayı 5-ə çatdırılmışdır.

Heç şübhəsiz məhkəmə-hüquq sistemimizin inkişafında ən mühüm hadisələrdən biri ölkəmizdə ilk dəfə olaraq inzibati Ədliyyə İnstitutunun yaradılması olmuşdur. Belə ki, dövlət orqanları tərəfindən insan haqlarının pozulmasının qarşısının alınması məqsədilə 2011-ci ildən ölkəmizin 7 bölgəsində yeni inzibati məhkəmələr fəaliyyətə başlamışdır. Bu gün vətəndaşların inzibati mübahisələr üzrə qaldırdıqları iddiaların 85%-nin təmin olunması ölkəmizdə inzibati ədliyyə institutunun təntənəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanda hakimliyə namizədlərin Avropada ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası xüsusilə qeyd edilməlidir. Çoxmərhələli imtahan və müsahibələrdən, habelə uzunmüddətli kurs və təcrübədən ibarət olan seçim proseduru müstəqil qurum — Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilir. Komitə üzvlərinin yarıdan çoxunun yüksək məhkəmələrin hakimi olması, habelə, Şuranın Aparatının, prokurorluğun, Ədliyyə Nazirliyinin, vəkilliyin və hüquqşünas-alimin bu qurumda təmsil olunması peşəkar hakim seçimini şərtləndirmişdir.

Hakimlərin Seçilməsi Qaydalarına müvafiq olaraq şəffaflığın və obyektivliyin təmin olunması məqsədilə test üsulu ilə və yazılı imtahanlar sayı hətta 1000 nəfəri ötən namizədlər üçün vahid zalda təşkil edilir. İmtahan prosesinin bütün mərhələləri, o cümlədən sualların seçilməsi, çoxaldılaraq paylanması namizədlərin, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin və KİV nümayəndələrinin qarşısında keçirilir, nəticələr onların iştirakı ilə, imtahan keçirilən auditoriyada yoxlanılaraq dərhal elan olunur. Ən maraqlısı isə bütün bu proses onlayn rejimdə canlı yayımlanır.

Azərbaycanda məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik aktları müsbət beynəlxalq təcrübələr nəzərə alınmaqla daim təkmilləşdirilir. Belə ki, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyə 50-dən artıq, o cümlədən Məhkəmə-Hüquq Şurası haqqında qanuna 20-dək mütərəqqi dəyişikliklər edilmişdir. Bu dəyişikliklərə əsasən Məhkəmə-Hüquq Şurasının məhkəmə hakimiyyətinin özünüidarə orqanı kimi səlahiyyətləri genişləndirilmiş, o cümlədən hakimlərin müstəqilliyinin təmini və fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, hakim ştatlarının məhkəmələr üzrə bölüşdürülməsi Şuraya həvalə edilmişdir.

Məhkəmə fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması baxımından mühüm vəzifələrdən biri də məhz bu sahədə innovativ xidmətlərin və texnoloji yeniliklərin tətbiqidir. Dövlət başçısının “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında” 13 fevral 2014-cü il tarixli Sərəncamı strateji məqsədləri müəyyən edərək məhkəmə fəaliyyətində inqilabi təkamülün əsasını qoymuş, müasir İKT-lərin tətbiqini daha da sürətləndirmişdir. Artıq istifadəsinə başlanılmış bu sistemin tətbiqi nəticəsində insanlar məhkəməyə gəlmədən, elektron formada müraciət edəcək, məhkəmə prosesləri, qərarlar, onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron “şəxsi kabinetə” malik olacaqlar. Nəticə etibarilə məhkəməyə müraciət imkanları daha da genişlənəcək, süründürməçilik və sui-istifadə hallarının qarşısı alınacaq, şəffaflıq və operativlik təmin ediləcəkdir. Həmçinin sistem vasitəsilə hakimin işinin effektivliyi yoxlanılacaq, icra intizamına nəzarət gücləndiriləcəkdir.

Hazırda Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində Sumqayıt Məhkəmə Kompleksinin və digər məhkəmə binalarının inşası davam etdirilir.

Yeni istifadəyə verilmiş məhkəmə binalarında “Elektron məhkəmə” informasiya sisteminin komponentlərinin tətbiqi, o cümlədən məhkəmə zallarında proseslərin dəqiq və sürətlə protokollaşdırılması və audio-video yazılışların aparılması, elektron sənəd dövriyyəsi və s. ilə bağlı bütün zəruri infrastruktur yaradılmışdır. Hakimlərlə proses iştirakçıları arasında məhkəmə zalından kənar münasibətləri aradan qaldırmaq, korrupsiyanı istisna edən şərait yaratmaq məqsədilə yeni məhkəmə binalarının inzibati və ictimai zonalara ayrılması təmin edilmişdir. Eyni zamanda, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və məlumatlılığın təmin edilməsi məqsədilə məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradan müasir elektron informasiya köşkləri quraşdırılmışdır. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları nüfuzlu beynəlxalq təsisatlar tərəfindən yüksək qiymətləndirilmiş, müsbət təcrübəmiz digər dövlətlərlə bölüşülmüşdür. Belə ki, 2017-ci ildə ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurası tərəfindən “Ədliyyənin Kristal Tərəzisi” müsabiqəsinin mükafatçısı olmuşdur. 2005-ci ildən etibarən iki ildən bir keçirilən bu müsabiqədə ədliyyə və məhkəmə sistemlərinin fəaliyyəti ilə bağlı Avropa Şurasının üzv dövlətləri tərəfindən təqdim olunan layihələr sırasından dörd ən qabaqcıl və səmərəli təcrübə seçilərək mükafatlandırılır.

2017-ci ildə keçirilmiş müsabiqədə Azərbaycan Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi “Elektron məhkəmə” informasiya sisteminin tərkib hissəsi olan “Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab” adlı layihə ilə iştirak etmişdir. Layihənin əsas mahiyyəti məhkəmə sistemində mütərəqqi elektron idarəetmənin tətbiq olunmasını əhatə edir. Elmi cəhətdən əsaslandırılmış bu sistem toplanan elektron statistik məlumatlar əsasında müxtəlif növ elektron analitik hesabatların hazırlanmasını mümkün edir.

Tədbirdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədr müavini Səadət Bektaşi, Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanov, uzun müddət ədliyyə sistemində çalışmış Mansur İbayev, İkram Kərimov çıxış edərək Azərbaycan ədliyyəsinin keçmiş tarixindən ətraflı söz açdılar.

Sonra Şahmat Federasiyasının inzibati binasında hakimlər arasında şahmat yarışı keçirildi. Qaliblər mükafatlandırıldı.

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**
**Foto S.MƏMMƏDİNDİR.**

# Məhkəmə hakimiyyətinin müstəqilliyi

**Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı 1918-ci ildə təsis olunan Azərbaycan ədliyyəsi bir əsirlik zəngin tarixi yol keçmişdir. Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması cümhuriyyət dövründən başlanmış və tarixi irsin qorunması məqsədilə ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün — 22 Noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən olunmuşdur. Bu bayramı ədliyyə işçiləri və hakimlər hər il böyük ruh yüksəkliyi ilə geniş qeyd edirlər.**

Ümummilli liderin ədliyyə sisteminin inkişafına qayğısı müstəqilliyimiz bərpa olunduqdan sonra da davam etmiş, hüquqi dövlət quruculuğu prosesində məhkəmə sisteminin islahatını daim xüsusi diqqətdə saxlamış, məhkəmələrin müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir hərəkətin yalnız ədliyyəyə, ədalətə və mühakimə prosesinə deyil, öncə vətəndaşların Konstitusiya ilə qorunan hüquq və azadlıqlarına qarşı olduğu nəzərə alınaraq bu sahədə köklü məhkəmə-hüquq islahatları aparılmışdır. Bu islahatlar nəticəsində əvvəlki hüquq sistemindən fərqli olaraq yeni müasir hüquq sistemi bərqərar olmuş, ölkədə üçpilləli məhkəmə sistemi fəaliyyətə başlamışdır.

Dünya təcrübəsi göstərir ki, məhkəmə-hüquq islahatları hər zaman davam edən prosesdir. Hətta inkişaf etmiş dövlətlərdə də bu sahədə islahatlar aparılır, məhkəmə sistemi təkmilləşir. Təsadüfi deyil ki, Avropa məkanında bir çox dövlətlərdə məhkəmə fəaliyyətinə digər hakimiyyətlər tərəfindən müdaxilə edilməsi, məhkəmələrin maliyyələşməsinin pisləşməsi, hakimlərin əməkhaqlarının və sayının azaldılması kimi neqativ tendensiyalara rast gəlinir. Ölkəmizdə isə hakimlərin əmək haqqının azaldılmasının yolverilməzliyi qanunla təsbit edilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bu sahədə aparılan ardıcıl və məqsədyönlü islahatlar uğurla inkişaf etdirilərək son illər məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilmiş, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilmiş, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənmiş, insanların məhkəmələrə müraciət imkanları xeyli asanlaşmış, infrastruktur müasirləşmişdir. Ölkə rəhbərinin məhkəmə hakimiyyətinə verdiyi mühüm önəm nəticəsində yeni təsisatlar - məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası (MHŞ) yaradılmışdır. Artıq 13 ildir ki, uğurla fəaliyyət göstərən MHŞ-nin səlahiyyətləri xeyli genişləndirilmişdir. Eyni zamanda, ölkəmizdə hakimlərin seçiminin ən şəffaf qaydaları tətbiq olunur və bu gün məhkəmə hakimiyyətində təmsil olunan hakimlərin əksəriyyətini məhz bu seçim əsasında təyin olunanlar təşkil edir.

Cəmiyyətdə məhkəmənin nüfuzu və ona etimad yalnız o zaman tam təmin edilir ki, bu inam hakimlərin müstəqilliyinə, obyektivliyinə, qanunların aliliyinə, qərəzsizliyinə və ədalətliliyinə əsaslansın. Təsadüfi deyil ki, Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilərək hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması üzrə ardıcıl tədbirlər görülür.

Məhkəmə-hüquq sistemində aparılan uğurlu islahatlar həm də beynəlxalq aləmdə böyük maraq doğurur, bu sahədə ölkəmizin nailiyyətləri yüksək qiymətləndirilərək tətbiq olunan yeniliklər, o cümlədən hakimlərin ən şəffaf seçim proseduru, məhkəmələrin yüksək statusuna uyğun müasir infrastrukturunun yaradılması, yeni innovativ elektron sistemlərin tətbiqi sahəsində Azərbaycanın müsbət təcrübəsi digər dövlətlərə nümunə göstərilir. Ölkəmizin məhkəmə sistemindəki nailiyyətlərinin Avropa Şurası tərəfindən təqdir olunaraq bu mötəbər qurumun “Ədliyyənin Kristal Tərəzisi” mükafatına layiq bilinməsi hər birimizdə yüksək iftixar hissi ilə qarşılanmaqla bu sahədə islahatların uğurla həyata keçirilməsinin əyani təzahürü olmuşdur. Avropa Şurasına üzv dövlətlər arasında keçirilmiş bu müsabiqədə ölkəmizin təqdim etdiyi “Məhkəmənin Nəbzi — İdarəetmədə İnqilab” layihəsinin ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafatlandırılması Azərbaycanın bu unikal təcrübəsinin səmərəli və qabaqcıl olmaqla yanaşı, digər dövlətlər üçün tətbiqinin mümkünlüyünü təsdiq edir. Bu təcrübə, sözsüz ki, məhkəmə sistemində inqilabi dəyişikliklərə rəvac verən ölkə Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamına əsasən “Elektron məhkəmə” informasiya sisteminin yaradılması üzrə görülən tədbirlər çərçivəsində ərsəyə gəlmiş və onun tətbiqi məhkəmə fəaliyyətinin elektron idarə olunmasına, hakimlərin iş yükünün qiymətləndirilməsinə və məhsuldarlığının artırılmasına xidmət edir. Ümumiyyətlə, informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunduğu indiki dövrdə məhkəmə fəaliyyətinin elektronlaşdırılması, vətəndaşların müraciət imkanlarının genişləndirilməsi, ədalət mühakiməsinin əlçatanlığının asanlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Ədliyyə Nazirliyi tərəfindən bu sahədə görülən işlər, o cümlədən Dünya Bankı ilə birgə ədliyyə sisteminin müasirləşdirilməsinə dair həyata keçirilən uğurlu layihələr çərçivəsində paytaxtda və bölgələrdə yeni inşa olunmuş müasir məhkəmə bina və komplekslərinin istifadəyə verilməsi, burada ən son informasiya texnologiyalarının, elektron məhkəmə sisteminin tətbiqi hakimlərin iş şəraiti ilə yanaşı, onların səmərəli fəaliyyətinə öz müsbət təsirini göstərir.

Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun bölgələrdə yeni məhkəmə binalarının açılışı, eyni zamanda, vətəndaşların səyyar qəbulları çərçivəsində yerli ədliyyə orqanlarına və məhkəmələrə baş çəkərək həmin qurumların fəaliyyəti və iş şəraiti ilə tanış olması, ədliyyə işçiləri və hakimlərlə müşavirələr keçirilərək fəaliyyətdə şəffaflığın və vətəndaş məmnunluğunun, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması ilə bağlı tövsiyə və tapşırıqları hər birimizi daha məsuliyyətlə fəaliyyət göstərməyə sövq edir. Çünki bu tələblər dövlət başçısının insanlara layiqli xidmətlərin göstərilməsi, onların müraciətlərinə həssaslıqla yanaşılması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması ilə bağlı tapşırıqlarından irəli gəlir. Ölkə Prezidentinin insan hüquqlarının etibarlı təminatına həssas münasibətinin və humanist siyasətinin təzahürü olaraq imzaladığı “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi, təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 10 fevral 2017-ci il tarixli Sərəncamı da məhz insanların azadlıq hüququnun qorunmasına, onlara ədalətli, humanist nöqteyi-nəzərdən yanaşılmasına xidmət edir.

Qeyd olunan Sərəncam ölkəmizdə aparılan məhkəmə-hüquq sistemində islahatların yeni mərhələdə davamına təkan verməklə cəza-icra siyasətinə baxışın yenilənməsini, cinayət qanunvericiliyinin təkmilləşdirilməsini, dünyada mövcud olan mütərəqqi təcrübələrin, o cümlədən cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərində elektron nəzarət vasitələrinin tətbiqini şərtləndirmişdir. Həmin Sərəncamla məhkəmələrə həbs qətimkan tədbirinin seçilməsinə həssas yanaşılması, bu tədbirlərin tətbiqi əsaslarının mövcudluğunun araşdırılması, bununla bağlı təqdimatlara baxılarkən digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünə, cəzanın növü və həddini müəyyən edərkən cəzanın sosial ədalətin bərpası, məhkumun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə tətbiqinə, cinayət törətməkdə təqsirli bilinən şəxsə qanunvericilikdə nəzərdə tutulmuş hədlərdə ədalətli cəzanın təyin edilməsinə xüsusi diqqət yetirilməsi ilə bağlı tövsiyələr verilmişdir. Bütövlükdə proqram xarakteri daşıyan bu Sərəncamda verilmiş tapşırıq və tövsiyələrin icrası üzrə artıq bir çox mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkə Prezidentinin təşəbbüsü ilə əhatəliliyinə, konseptuallığına və tənzimlənmə sahəsinə görə Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişiklik edilmişdir ki, bura humanistləşdirmə, liberallaşdırma, azadlıqdan məhrumetmə sanksiyalarının azaldılması daxildir. Həmçinin, müvafiq maddələrdə azadlıqdan məhrumetmə ilə yanaşı, yüksək məbləğlərdə cərimə cəzası da tətbiq olunmuş, cinayət tərkiblərinin Məcəllədən çıxarılması yolu ilə bəzi əməllər dekriminallaşdırılmışdır.

Eyni zamanda, azadlıqdan məhrumetmə cəzasının tətbiqi hallarının azaldılması və sanksiyalara alternativ cəzaların daxil edilməsi məqsədilə Cinayət Məcəlləsinə yeni növ cəza daxil edilmişdir ki, bu, məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasıdır. Artıq məhkəmələr tərəfindən azadlığın məhdudlaşdırılması cəzası geniş tətbiq edilir. Həmin cəzanın icrası zamanı elektron nəzarət vasitələrinin tətbiqi nəzərdə tutulur. Avropa ölkələrində aparılmış tədqiqatlar göstərir ki, belə vasitələrin tətbiq edildiyi məhkumların tam əksəriyyəti cəzanın çəkilməsi şərtlərini pozmur və yenidən cinayət törədilməsindən çəkinir. Elektron nəzarət vasitələrindən, həmçinin şərti məhkumetmə və ya cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə institutlarının tətbiqi zamanı istifadə edilməsi nəzərdə tutulur. Cəmiyyətimizdə rəğbətlə qarşılanan bu humanist tədbirlər və tətbiq olunan yeniliklər onu deməyə əsas verir ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə vətəndaşların mənafeyinə hesablanmış çoxşaxəli hüquqi islahatlar uğurla davam etdirilir. Bütövlükdə, Azərbaycan ədliyyəsinin inkişafı naminə həyata keçirilən bütün tədbirlər ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarını ardıcıl və dolğun şəkildə, daha geniş və demokratik məzmunda təmin etmək məqsədlərinə xidmət edir.

Bəli, Azərbaycan ədliyyəsi şərəfli və ibrətamiz tarixi yol keçmişdir. Hər il peşə bayramı günündə ədliyyə işçiləri Fəxri Xiyabana gələrək bu bayramı bizlərə bəxş etmiş ümummilli liderimiz Heydər Əliyevə öz əbədi ehtiramını bildirirlər. Biz, ədliyyə işçiləri, hakimlər ulu öndərin və onun layiqli davamçısı cənab İlham Əliyevin Azərbaycan ədliyyəsinə göstərdikləri qayğı və diqqətə əməli işimizlə, şəffaf və humanist xidmətimizlə cavab verməl üçün bundan sonra da var qüvvə ilə çalışmalıyıq.

**Elçin QURBANOV,**
**Şirvan Şəhər Məhkəməsinin sədri.**

# Kolumbiyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkilinin diplomatik fəaliyyəti başa çatıb

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Kolumbiyanın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Marta İnes Qalinda Penya ilə diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Kolumbiya arasında mövcud olan ikitərəfli münasibətlər, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıqdan məmnunluq ifadə olunub, eyni zamanda, münasibətlərin daha da inkişafı üçün böyük potensialın mövcud olduğu vurğulanıb. İki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub.

Marta İnes Qalinda Penya diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Nazir Elmar Məmmədyarov Azərbaycan və Kolumbiya arasında münasibətlərin inkişafına verdiyi töhfələrinə görə Marta İnes Qalinda Penyaya təşəkkürünü ifadə edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

AZƏRTAC

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Madriddə İspaniya Senatının sədri ilə görüşüb

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə İspaniyanın paytaxtı Madriddə "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində İspaniya Senatının sədri Pio Qarsia Eskudero ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, QMİ sədri konfransın keçirilməsində göstərdiyi dəstəyə görə İspaniya hökumətinə təşəkkür edib. Bildirib ki, Azərbaycan ilə İspaniya arasındakı mövcud münasibətlər gələcəkdə də bu kimi tədbirlərin keçiriləcəyini deməyə əsas verir.

Allahşükür Paşazadə Prezident İlham Əliyevin salamlarını İspaniya Senatının sədrinə və ispan xalqına çatdırıb və onu Azərbaycana dəvət edib.

Senatın sədri Pio Qarsia Eskudero "Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi" mövzusunda beynəlxalq konfransın xalqlarımız arasında münasibətlərin daha da inkişafı baxımından əhəmiyyətli olacağına inandığını bildirib.

Görüşün sonunda Senatın sədrinə xatirə hədiyyəsi təqdim olunub.

AZƏRTAC

# Məcburi köçkünlərlə növbəti görüş keçirilib

**Noyabrın 6-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş keçirilib.**



Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşları Komitə sədri Rövşən Rzayev, həmçinin komitənin digər rəhbər işçiləri fərdi qaydada qəbul ediblər.

Məcburi köçkünlərin müraciətləri, əsasən, mənzil-məişət problemlərinin həlli, məşğulluğun təmin edilməsi, vahid aylıq müavinətin verilməsi, kommunal xidmətlər və digər məsələlərlə bağlı olub.

Məcburi köçkünlərə bir daha izah edilib ki, onların sosial problemlərinin həlli daim dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin bununla əlaqədar müəyyənləşdirdiyi vəzifələrin, verdiyi tapşırıqların icrası təmin edilir, müasir tipli yeni yaşayış kompleksləri salınır, məşğulluq imkanları genişləndirilir. Birinci vitse-prezident xanım Mehriban Əliyeva Bakıda və Sumqayıtda hələ də ağır şəraitdə yaşayan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlərin həyata keçirilməsini şəxsən nəzarətdə saxlayır. Ölkəmizin sosial-iqtisadi inkişafındakı uğurlar məcburi köçkünlərin də rifahının yüksəldilməsi üçün möhkəm zəmin yaradır.

Söhbət zamanı məcburi köçkünlərin qaldırdıqları məsələlərin həlli ilə bağlı Dövlət Komitəsinin müvafiq strukturlarına konkret tapşırıqlar verilib.

AZƏRTAC

## Azərbaycanın və Ermənistanın Müdafiə nazirlikləri arasında hər hansı rabitə və ya digər əlaqə mövcud deyil

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Ermənistanın Müdafiə Nazirliyi arasında rabitə və ya hər hansı digər əlaqə mövcud deyil.**

**Bunu Ermənistanın müdafiə naziri vəzifəsini icra edən David Tonayanın açıqlaması ilə əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən bildiriblər.**

**Açıqlamada bildirilib ki, Düşənbədə əldə olunmuş razılığa əsasən, cəbhədəki vəziyyətlə bağlı Ermənistanla qarşılıqlı əlaqəni yaradan şəxs müəyyən edilib və həmin məsul şəxs Müdafiə Nazirliyinin əməkdaşı deyil.**

AZƏRTAC

*Xarici İşlər Nazirliyi:*

# Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərimizdə 261 min hektar meşə sahəsi məhv edilib

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidməti 6 noyabr - Müharibə və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması beynəlxalq günü ilə bağlı açıqlama yayıb.**

AZƏRTAC xəbər verir ki, açıqlamada 2001-ci ildən etibarən BMT Baş Assambleyasının 6 noyabr tarixini müharibə və silahlı münaqişələr zamanı ətraf mühitin istismarının qarşısının alınması beynəlxalq günü elan etdiyi bildirilir. Qeyd edilir ki, Ermənistanın hərbi təcavüzü Azərbaycan Respublikasının təbiətinə, bioloji müxtəlifliyinə, ümumilikdə, bölgənin ekoloji durumuna ciddi ziyan vurub, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlara gətirib çıxarıb, bölgənin təbii ehtiyatları davamlı istismara məruz qalıb. Hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin 261 min hektar meşə sahəsi, o cümlədən qiymətli meşə sahələri, təbiət abidələri və pasportlaşmış 145 Şərq çinarı məhv edilib. Eyni zamanda, bu ərazilərdə Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilən müxtəlif bitki və heyvan növlərinin böyük hissəsi, xüsusi əhəmiyyətli və mühafizə olunan təbiət əraziləri, habelə nadir biomüxtəliflik nümunələri məhv edilib.

İşğal olunmuş ərazilərdən keçən təbii su mənbələrimiz Ermənistan tərəfindən genişmiqyaslı çirklənməyə məruz qalır. Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən kəskin çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün ciddi təhlükə yaranıb. Tərtər çayı üzərində inşa edilmiş və 100 min hektardan çox əkin sahəsinin suvarılmasına hesablanmış Sərsəng su anbarından işğalçı qüvvələr qış mövsümündə sahələrin su altında qalması üçün istifadə edir, yay aylarında isə kəskin su qıtlığı yaratmaqla dağətəyi və aran hissədə məskunlaşan 400 min əhalini təhlükə altında saxlayır. Təsadüfi deyil ki, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunub.

Azərbaycan Respublikasının işğal altında saxlanılan ərazilərində 163 faydalı qazıntı yataqları, o cümlədən qızıl, civə, mis, qurğuşun, sink, daş kömür və digər sərvətlər ermənilər tərəfindən talan edilir. İşğal olunmuş ərazilərin təbii sərvətləri istismar edilən zaman ətraf mühit standartlarına riayət olunmur və nəticədə ətraf mühitə də ciddi zərər vurulur.

Beynəlxalq hüququn müvafiq müddəalarına və öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə baxmayaraq, işğal etdiyi Azərbaycan ərazilərində ətraf mühiti və təbii sərvətləri istismar edən Ermənistanın bu siyasəti bölgənin dayanıqlı inkişafı və tərəqqisinə münasibətdə tutduğu laqeyd və qeyri-konstruktiv mövqeni bir daha bariz şəkildə nümayiş etdirir.

Beynəlxalq ictimaiyyət, xüsusilə də Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz fəaliyyətə və təbii ehtiyatların, ətraf mühitin istismarına bu və ya digər şəkildə, fiziki və hüquqi şəxslərin iştirakı ilə cəlb olunan ölkələr beynəlxalq hüququn ciddi pozulması halının davam etdirilməsinə hər hansı şəkildə yardım etməkdən çəkinməlidirlər.

AZƏRTAC

# Ankaradakı Heydər Əliyev Bağında ağacəkmə aksiyası keçirilib

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Fidanlar fidanlarla böyüyür!" şüarı altında təşkil olunan aksiyada iştirak edib*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaranın Batıkent rayonunun Uğur Mumcu məhəlləsində yerləşən Heydər Əliyev Bağında təşkil olunan ağacəkmə aksiyasında iştirak edib və ağac əkib.**



AZƏRTAC xəbər verir ki, "Fidanlar fidanlarla böyüyür!" şüarı altında keçirilən tədbirdə Türkiyənin dövlət və hökumət nümayəndələri, Ankara ictimaiyyətinin tanınmış simaları, səfirlər, deputatlar, o cümlədən məktəblilər iştirak ediblər.

Ağacəkmə aksiyası ilə bağlı Heydər Əliyev Bağında böyük izdiham yaşanıb.

Əvvəlcə Prezident Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış edib.

Ədalət və İnkişaf Partiyası (AKP) tərəfindən həyata keçirilən yaşıllaşdırma siyasətinin davamı olan "Fidanlar fidanlarla böyüyür!" layihəsinin əhəmiyyətindən danışan Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, bu gün Türkiyənin 81 vilayətində 10 milyon ağac əkiləcək. Dövlət başçısı qeyd edib ki, Türkiyə yaşıllaşdırma işləri ilə dünyada meşəlik sahələrini genişləndirən nadir ölkələrdən birinə çevrilib. AKP hakimiyyəti 16 ildə 4 milyard 70 milyon ədəd ağac əkib. Bu sayı 7 milyarda çatdırmaq hədəflənir.

Qeyd edək ki, Ankaradakı Heydər Əliyev Bağı Ulu Öndərimizin şərəfli ömür yoluna ehtiram olaraq salınıb və burada hər il 1000 ağac əkilir. Heydər Əliyev Bağı Türkiyə paytaxtının ən gözəl guşələrindən birində yerləşir. İnsanlar bu ərazidə xoş istirahət edirlər. Bu bağ Ankarada azərbaycansevərlərin ən çox ziyarət etdikləri məkana çevrilib.

AZƏRTAC

# Misir mətbuatı Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin Bakıda keçirilmiş konfransını geniş işıqlandırıb

**Misir mətbuatı Fələstin Dövlətinin Asiya ölkələrindəki səfirlərinin noyabrın 5-də Bakıda keçirilmiş konfransını geniş işıqlandırıb.**

AZƏRTAC xəbər verir ki, Misirin Yaxın Şərq Xəbərlər Agentliyi, "Asiya al Youm", "Al Omah", "Geytnyusnau" və digər nəşrləri konfransa və Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun həmin tədbirdəki çıxışından fikirlərə geniş yer verib. Qeyd edilir ki, nazir Azərbaycanın Fələstin xalqının sülh, sabitlik və dayanıqlı inkişafa nail olmaq yolunda mübarizəsini davamlı şəkildə dəstəklədiyini bildirib. O, Azərbaycanın Fələstin məsələsinin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini davamlı olaraq dəstəklədiyi vurğulayıb.

Yazılarda ölkəmizin Fələstinlə bağlı bir sıra beynəlxalq tədbirlərə, o cümlədən keçən il BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının tətbiqi üzrə komitəsinin, humanitar məsələlərin əlaqələndirilməsi üzrə ofisinin, İslam Əməkdaşlıq Təşkilatının (İƏT), vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qüds məsələsi üzrə beynəlxalq konfransa ev sahibliyi etdiyi diqqətə çatdırılıb. Azərbaycanın Fələstin xalqının çətin günlərində hər zaman onun yanında olduğunu və İslam həmrəyliyinə sadiq qaldığını deyən nazir ciddi maliyyə çətinlikləri ilə üzləşən Birləşmiş Millətlər Təşkilatının Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə ölkəmizin cari ilin oktyabr ayında 200 min ABŞ dolları məbləğində yardım etdiyini bildirib.

Ərəbdilli oxucuların diqqətinə çatdırılır ki, nazir konfrans iştirakçılarına Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti və onun nəticələri barədə də məlumat verib.

Məqalələrdə, həmçinin Fələstin Dövlətinin xarici işlər naziri Riad Əl-Malikinin Fələstin xalqının sülh uğrunda mübarizəsində göstərdiyi davamlı dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür etdiyi vurğulanır.

AZƏRTAC

# Milli maraqlara uyğun siyasət nailiyyətlərin davamlılığını təmin edir

*Dövlət başçısı deyib: "Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur"*

**(əvvəli 1-ci səhifədə)**

2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Hesab edirəm, bu ilin doqquz ayının göstəriciləri deməyə əsas verir ki, biz istədiyimizə nail oluruq. İqtisadi göstəricilərə gəldikdə isə deməliyəm ki, bu ilin doqquz ayında bizim iqtisadiyyatımız, yəni, ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Bildiyiniz kimi, son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümid edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb". İqtisadiyyatın çoxşaxəli inkişafını təmin etmək üçün qeyri-neft sektorunun inkişafı prioritet elan edilmişdir və bu strateji hədəfə inamla gedilir. Göründüyü kimi, istehsal sahələrinin dinamik inkişafı qorunur. Bu irəliləyiş siyasi iradənin və düzgün kursun bariz göstəricisidir. Azərbaycanda davamlı surətdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafının prioritet elan olunması, bu istiqamətdə atılan addımlar bütün təsərrüfat sahələrinin dinamik inkişaf yolunda olmasını təmin edib.

Sənaye sahələrinə aid müəssisələrin sayı artdıqca ümumi daxili məhsulun strukturu zənginləşir və yaxşılaşır. Bu reallığı son illərdə iqtisadiyyatın dayanıqlığının əsas göstəricisi olan qeyri-neft sektorunun davamlı surətdə yüksək templə inkişafı da sübut edir. Keçən ildə olduğu kimi, bu il də ölkə bu istiqamətdə sürətlə irəliləmək əzmindədir. Buna son on beş illik pozitiv təcrübə, doğru strateji kurs və özünü doğrultmuş Azərbaycan iqtisadi modeli zəmanət verir. İqtisadiyyatın şaxələndirilməsi bu gün də hərtərəfli inkişafda əsas prioritetdir. Hədəf həm inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq, həm də bütün zəruri məhsullardan asılılığı aradan qaldırmaqla iqtisadi və siyasi müstəqilliyi möhkəmləndirməkdir. Dövlətin özünü təsdiq etmiş strateji kursu buna nail olunacağına şübhə yeri qoymur və artıq uzun müddət ərzində qeyri-neft sektorunun sürətlə artımı, real iqtisadiyyatın istehsal məhsullarının ÜDM-də payının daim çoxalması məqsədə qısa müddətdə çatılacağına əminlik yaradır. Dünya ölkələrində hazırda iqtisadi böhranın davam etdiyi, qlobalizm prosesinin gücləndiyi bir şəraitdə məhz bu yolla və insan kapitalına məxsus olan intellektual mənbələrdən səmərəli istifadə etmək, maddi zənginliklə intellektual zənginlik arasında təbii vəhdətə nail olmaqla, ən əlverişli üsullarla inkişaf etməyə çalışılır. Ölkədə bütün sosial-iqtisadi inkişaf ilbəil daim yüksək mərhələyə qalxır. Azərbaycanın iqtisadi qüdrəti yüksəldikcə, maliyyə imkanları da artır və ölkənin sənaye potensialının daha da gücləndirilməsi, ixrac potensialının genişlənməsi dünya bazarlarına yeni-yeni rəqabətədavamlı məhsullarla çıxışı üçün lazımi şərait yaranır və bu imkan genişlənir. Hazırda bu istiqamətdə beynəlxalq standartlara uyğun mühüm və böyük layihələrin həyata keçirilməsi öz sürətini daim artırır.

Azərbaycan son on beş ildə iqtisadi əməkdaşlıqda etibarlı və səmərəli tərəfdaş kimi özünü doğruldub. Ölkə iqtisadiyyatının inkişafında xarici sərmayəni ölkəyə cəlb etməkdə mühüm əhəmiyyətə malikdir. Çünki müasir, səmərəli islahatlar həyata keçirmək, beynəlxalq bazarlara rəqabətədavamlı məhsullarla çıxmaq və ən əsası da transmilli layihələri reallaşdırmaq üçün lazım olan böyük maliyyə vəsaitini cəlb etmək investorlarsız mümkün deyildir. Buna görə də ölkədə zəruri siyasi və iqtisadi islahatlar aparılması davamlıdır. Azərbaycan iqtisadiyyatına 2003-2018-ci illər ərzində 250 milyard dollar həcmində investisiya yatırılıb, onun yarısı xarici sərmayədir. Ölkə rəhbərliyi tərəfindən bu prosesin operativ surətdə həyata keçirilməsi üçün Azərbaycanın qanunvericilik bazası ölkədə investisiya qoyuluşuna münbit siyasi və hüquqi şərait yaradıb. Belə əlverişli mühit dünya ölkələrində və ən nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycana marağı, etibarı daim artırır və bu zəmində ölkənin əlaqələri mütəmadi olaraq genişlənir. Ölkəmiz Avropa və Asiyanın sərhədində, iki nəhəng sivilizasiyanın qovşağında yerləşdiyi üçün çox mühüm strateji əhəmiyyətə malikdir, bu məkan iki qitənin siyasi, iqtisadi və sosial sahələrinin birinin digərinə təsir etdiyi təmas nöqtəsidir. Dövlətin reallaşdırdığı strateji kursda bu amillər çox böyük uğurla nəzərə alınır və səmərəli istifadə edilir.

İnkişaf etmiş, dünyanın ən böyük iqtisadi bazarı Avropanın, Xəzərin karbohidrogen ehtiyatlarına böyük ehtiyacı vardır. Qitələrin təmas xəttində yerləşən Azərbaycan bu ehtiyacın ödənilməsi üçün həm əlverişli tranzit ölkə, həm də səmərəli siyasi və iqtisadi əməkdaşlıq körpüsü, sabitliyin, qarşılıqlı maraqları ödəyən əlaqələrin təminatçısı və vasitəçisi kimi çıxış edir. Beləliklə, dövlətimizin həmin ölkələr üçün nə qədər böyük əhəmiyyət daşıdığını təsəvvür edə bilərik. Sabit davamlı iqtisadi inkişafa nail olmaq üçün bu qitələrin ölkələri Azərbaycanda, ümumən bu regionda sabitliyin tam bərqərar olmasına, risklərin minimuma endirilməsi və siyasi-iqtisadi inteqrasiyanın daim genişlənməsi və dərinləşməsinə maraqlıdırlar. Bütün bunlar sabit dinamik inkişafın qarantıdır, Avropa və Asiyanın inteqrasiyasına, möhkəm sülhə, dinamik və operativ inkişafa müvafiq və möhkəm zəmin yaradır. Təbii ki, hər bir dövlətin inkişafında siyasi sabitlik, iqtisadi qüdrət və sosial rifah amilləri həlledici əhəmiyyətə malikdir. Azərbaycanda da həmin istiqamətlərdə mühüm tədbirlər reallaşdırılıb və bu proses davam edir, digər tərəfdən beynəlxalq standartlara uyğun mühüm layihələr icra edilir.

Ölkədə sahibkarlığa əsaslanan ictimai münasibətlər formalaşmış özəl sektorun inkişafı üçün bütün siyasi və hüquqi zəmin yaradılmışdır, yaradılan bu baza təşəbbüskarlığın artmasına güclü stimul verir. Bu proses davam edir, daim təkmilləşdirilir, yeni mərhələnin tələbinə uyğun zəruri qanuni baza formalaşdırılır. Beləliklə, bu gün artıq ümumi daxili məhsulun 80 faizindən çoxu özəl sektorun payına düşür. Bu göstərici bazar iqtisadiyyatı formasiyasına yeni keçmiş gənc və inkişaf edən Azərbaycan üçün xüsusi diqqətəlayiqdir. Ölkədə aparılan siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır. Sürətli və davamlı inkişafa nail olmaq üçün Azərbaycan beynəlxalq qurum və təşkilatlarla da sıx və səmərəli əməkdaşlıq edir, öhdəsinə götürdüyü öhdəliklərə də daim əməl edir. Azərbaycanda gedən inkişafa diqqət yetirəndə hər bir sahədəki islahatların ölçülüb-biçildiyinin, bir-birinin tamamladığının şahidi oluruq. Belə ki, bir islahat digərini dəstəkləyir. Bu cür fəaliyyət müasir, güclü və çiçəklənən ölkə qurmaq imkanını artırır. Reallaşan uğurlu daxili və xarici siyasətin mahiyyətində qüdrətli sosial-iqtisadi inkişafa nail olmaq, iqtisadi və siyasi müstəqilliyin möhkəmləndirilməsi dayanır. Dövlət başçısı davamlı düşünülmüş siyasət sayəsində sosial-iqtisadi inkişafın xarici ticarətdə də artıma səbəb olduğu və iqtisadiyyatımızın yüksəlişi barədə deyib: "Doqquz ayda xarici ticarət dövriyyəsi 37 faiz artıb. İxrac da təxminən bir o qədər artıb. Bu da çox müsbət haldır. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır. Bax, budur, sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# ADPU-da professor Vilayət Əliyevin 80 illik yubileyinə həsr olunmuş tədbir





Noyabrın 5-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurasının üzvü, ADPU rektorunun müşaviri, filologiya üzrə elmlər doktoru, professor, Əməkdar müəllim Vilayət Əliyevin 80 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə ADPU-nun rəhbərliyi, millət vəkilləri, ölkəmizin tanınmış və nüfuzlu ziyalıları, media strukturlarının rəhbərləri, universitetin fakültə dekanları, kafedra müdirləri, şöbə müdirləri, müəllimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov professor Vilayət Əliyevi 80 illik yubileyi münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətində uğurlar arzulayıb. Qeyd edib ki, ADPU-nun dəyərli alimi Vilayət Əliyevin 80 illik yubileyinin keçirilməsi Azərbaycan elmi, təhsili, ictimai-siyasi həyatı üçün xüsusi önəm kəsb edir. Çünki professor V.Əliyev bu sahələrdə öz sözünü layiqincə demiş bir alim-ziyalıdır. Çoxsaylı kitabların, məqalələrin müəllifidir. Professor V.Əliyev müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevə yenidən ölkəmizdə hakimiyyətə qayıtması üçün müraciət edən 91 vətənpərvər ziyalıdan biridir. Vilayət müəllim həm də gözəl, qayğıkeş ailə başçısıdır. Övladlarını cəmiyyət üçün layiqli vətəndaşlar kimi yetişdirib. Rektor tədbirdə 80 illik yubileyi münasibətilə və universitetdə uzun illər səmərəli elmi-pedaqoji fəaliyyətinə görə professor V.Əliyevə təşəkkürnamə təqdim edib.

Filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilov professor Vilayət Əliyevin elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti haqqında məruzə ilə çıxış edib. Professor B.Xəlilov bildirib ki, Vilayət Hüseyn oğlu Əliyev 1938-ci il avqust ayının 23-də Şəki rayonunun Daşbulaq kəndində anadan olub. Ailəsi dəfələrlə repressiyaya məruz qalıb. 1962-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib, elə həmin ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun "Türkologiya" ixtisası üzrə aspiranturasına qəbul olunub. Tanınmış türkoloq, akademik Məmmədağa Şirəliyev Azərbaycan və özbək dillərinin müqayisəli qrammatikası üzrə mövzu müəyyənləşdirib və gənc tədqiqatçıya görkəmli türkoloq, akademik Qəni Əbdürrəhmanovu elmi rəhbər məsləhət bilib. Elmi axtarışlar onu Daşkənd şəhərinə gətirib, türk dünyası ilə yaxından tanış olmağa, özbək dilini öyrənməyə imkan yaradıb. Daşkənd şəhərində çalışarkən tanınmış şair, dramaturq, professor Maqsud Şeyxzadə ilə yaxından tanış olub. Sonralar onun ikicildlik bədii irsinin Azərbaycan dilinə tərcüməsində fəal iştirak edib. Bu dostluq və Özbəkistandakı türk mühiti onun bir şəxsiyyət kimi yetişməsinə təkan verib və gənc tədqiqatçını türkçülük, azərbaycançılıq idealları ilə zənginləşdirib.

Professor V.Əliyev 1960-cı illərdən dilçilik sahəsində fəaliyyət göstərir. Onun elmi tədqiqatları Azərbaycan dilçiliyi və türkologiya ilə bağlıdır. 200-dən çox elmi məqalənin və "Azərbaycan dilində feilin təsriflənməyən formaları", "Məsdər", "Azərbaycan dilində feili sifət", "Azərbaycan dilində feilin perifrastik formaları", "Toponimika", "Azərbaycan toponimiyası" kimi kitabların müəllifidir. AMEA-nın nəşr etdirdiyi üççildlik "Müasir Azərbaycan dili" əsərinin müəlliflərindən biridir. 1999-cu ilin iyun ayında Türkiyədə keçirilən türk dövlətləri və topluluqlarının VII qurultayında iştirak edib. Dəfələrlə Azərbaycanda və digər ölkələrdə keçirilmiş elmi konfranslarda iştirak edib. Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının üzvü olub.

Professor V.Əliyevin elmi-pedaqoji fəaliyyətinin əsas hissəsi ADPU ilə bağlıdır. 1997-2016-cı illərdə ADPU-nun Elm və innovasiyalar üzrə prorektoru vəzifəsində çalışıb. Xalqımızın görkəmli alimi, vətənpərvər ziyalısıdır. Onun ictimai-siyasi fəaliyyətində bir alim-vətəndaş mövqeyi var.

Professor V.Əliyev dilimizin keşiyində dayanan, onun imkanlarına hörmətlə yanaşan, dilimizi mənəvi sərvətimiz kimi dəyərləndirən, dövlət rəmzlərindən biri kimi ona xüsusi əhəmiyyət verən, dilimizi milli varlığımızın göstəricisi kimi qiymətləndirən alimlərimizdən biridir. Vilayət Əliyev bütün varlığı ilə türkçüdür, türk dünyasını və türkoloji düşüncəni, məfkurəni qəbul edən, təbliğ edən alimdir. İnanırıq ki, professor V.Əliyev yeni-yeni əsərləri ilə Azərbaycan dilçilik elminə dəyərli töhfələr verəcəkdir.

AMEA-nın vitse-prezidenti, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik, millət vəkili İsa Həbibbəyli, YAP-ın Səbail rayon təşkilatının sədri, millət vəkili, professor Şəmsəddin Hacıyev, Ədliyyə nazirinin müavini, general-polkovnik Məhərrəm Əliyev, millət vəkilləri Hadi Rəcəbli, Fazil Mustafa, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədr müavini Mirzə Cəfərzadə, ADPU-nun Ümumi tarix kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Vəli Əliyev, Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müdiri, professor Himalay Qasımov, Müasir Azərbaycan dili kafedrasının professoru Cəfər Cəfərov, BDU-nun Türkologiya kafedrasının müdiri, professor Ramiz Əskər, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov, "Zəngəzurun səsi" qəzetinin təsisçisi Yavər Nuruyev və başqaları çıxış edərək professor V.Əliyevin görkəmli dilçi alim, milli ruhlu, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət edən vətənpərvər ziyalı olduğunu vurğulayaraq ona ən xoş arzularını bildiriblər.

Tədbirdə professor Vilayət Əliyevə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Fəxri Fərmanı və "Veteran həmrəyliyi" medalı, həmçinin "Zəngəzurun səsi" qəzetinin fəxri diplomu təqdim edilib.

Sonda professor Vilayət Əliyev çıxış edərək göstərilən diqqət və qayğıya görə ADPU-nun rəhbərliyinə təşəkkür edib.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# GÖYGÖL: SOSİAL-İQTİSADİ İNKİŞAF DİNAMİKDİR





**Göygöl rayonunda 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Yığıncağı giriş sözü ilə açan, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov Azərbaycanda gedən davamlı inkişafdan və nəhəng layihələrin uğurla icrasından danışaraq, qeyd etdi ki, ölkə başçısı cənab İlham Əliyevin düşünülmüş siyasətinin, gələcəklə bağlı mükəmməl proqramların icrasının və xalq-iqtidar birliyinin nəticəsi olaraq ölkəmiz öz inamlı inkişafını davam etdirmişdir.**

Rayonda 2018-ci ilin 9 ayı ərzində 578 yeni iş yerləri açılmışdır, bunun da 348-i daimidir. 2018-ci ilin 9 ayı ərzində iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 131 milyon 351,3 min manat, ondan 85 milyon 80.7 min manatı (64.8%) istehsal sahələrini, 46 milyon 270.8 min manatı (35.2%) xidmət sahələrini təşkil etmiş, adambaşına 2069.2 manat dəyərində məhsul istehsal edilmişdir. Aqrar sahənin inkişafına göstərilən dövlət dəstəyinin nəticəsi olaraq 2018-ci ildə 1489 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 8280.95 hektar əkin və çoxillik əkmələrə görə dövlət büdcəsindən 612 min 410 manat subsidiya verilmişdir. Hazırda 6700 hektar rayon ərazisində payızlıq şum aparılmışdır və işlər davam etdirilir.

2018-ci ilin 9 ayında 313 nəfər kənd təsərrüfatı məhsullarının istehsalçılarına 70% güzəştlə 720.2 ton mineral gübrə satılmışdır. Heyvandarlıq sahəsində yüksək göstəricilərə nail olmaq məqsədi ilə heyvandarlıqla məşğul olan hüquqi və fiziki şəxslərə dəyərinin 50%-ni ödəmək şərti ilə 7 baş cins mal-qara satılaraq cins mal-qaranın sayı 243 başa çatdırılmışdır. Eyni zamanda, 651 baş mal-qara süni yolla mayalandırılmış, 268 baş cins bala alınmışdır. Rayonda iribuynuzlu mal-qaranın sayı 20678 başa, xırdabuynuzlu mal-qaranın sayı 161398 başa çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə süd istehsalı 38.8 ton, ət istehsalı 1157.4 ton, yumurta istehsalı 11 min ədəd artmışdır. Əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə 126 ədəd subartezian quyulsunda cari, 4 subartezian quyulsunda isə əsaslı təmir işləri aparılmışdır. Qapalı boru şəbəkəsinin 3,0 km, beton kanalların isə 7 km hissəsi təmir edilmiş, daşqınların qarşısını almaq məqsədilə çay məcrasında 197 min kubmetr həcmində təmizləmə işləri görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən rayon ərazisində nəzərdə tutulmuş 4 ədəd subartezian quyusundan Qızılqaya qəsəbəsində 1 ədədi, Hacıməlik qəsəbəsində 1 ədədi və Yeni Qızılca kəndində 1 ədədi istifadəyə verilmiş, Balçılı kəndində isə 1 ədəd subartezian quyusu qazılmış və ayın sonuna istifadəyə hazırdır. Rayonda sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq hüquqi şəxslərin sayı 578 nəfərə çatmış, hesabat dövründə aqrar sahənin inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 17 sahibkara 190 min manat məbləğində güzəştli kredit verilmişdir.

Əhalinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə 2018-ci ilin 9 ayı ərzində elektrik təsərrüfatında 136 min 650 manat dəyərində təmir-bərpa, quraşdırma işləri aparılmış, 48 ədəd müxtəlif güc transformator təmir edilmiş, qəza vəziyyətində olan 94 ədəd elektrik dayaqları yenisi ilə əvəz olunmuşdur. Rayonun Pənahlılar, Üçtəpə, Xaqani, Əzgilli, Yeni Zod, Aşıqlı kəndlərində, Göygöl şəhərinin yeni yaşayış massivində hava elektrik verilişi xətləri özünüdaşıyan izolyasiyalı naqillərlə əvəz olunmuş, 437 ədəd dayaq basdırılaraq, ümumilikdə 16 km uzunluğunda xətt çəkilmişdir.

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə magistral su kəmərlərində və su mənbəyində təmizləmə işləri aparılmış, şəhərdaxili su şəbəkəsində uzunluğu 160 metr polietilen boru, Ağdağ qəsəbəsində 250 metr polad boru yenisi ilə, Aşıqlı kəndinə gedən 100 metrlik polad boru yeni polietilen boru ilə əvəz edilmiş, 1 ədəd su nasos stansiyasında təmir işləri aparılmış, 85 yerdə su axıntısının, 130 yerdə isə kanalizasiya tutulmalarının qarşısı alınmışdır. Əhaliyə göstərilən rabitə xidmətini yaxşılaşdırmaq məqsədilə Hacıməlik qəsəbəsində istismarda olan 384 nömrəlik EATS-də yeni stansiya avadanlıqları quraşdırmaqla tutumu 192 nömrə artırılaraq 576 nömrəyə çatdırılmışdır. Ümumilikdə rayonun müxtəlif yaşayış məntəqələrində 103 ədəd yeni telefon çəkilişi aparılmışdır.

Tibbi xidmətin yaxşılaşdırması istiqamətində Göygöl Mərkəzi Rayon Xəstəxanası əsaslı və Qarabulaq Tibb məntəqəsi cari təmir edilmişdir. Əhalinin sağlamlığının qorunub saxlanılması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyəsinə əsasən rayon əhalisi ümumi profilaktik müayinələrə cəlb edilərək 38575 nəfər tibbi müayinədən keçirilmiş, onlardan 9442 nəfər ambulator, 416 nəfər stasionar müalicəyə, 84 nəfər cərrahi müalicəyə cəlb olunmuş, 39 nəfər daha ixtisaslı tibbi yardım almaq üçün Bakı şəhərinə göndərilmişdir.

Rayon icra hakimiyyətinə 9 ay ərzində 689 müraciət daxil olmuşdur. Müraciətlərin ümumi sayı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 11 vahid artmışdır. Şikayət xarakterli müraciətlər sosial müdafiə, mənzil, torpaq, təhsil, elektrik, qaz, su təchizatı, ailə və məişət, nəqliyyat, kənd təsərrüfatı, bələdiyyələrin və icra nümayəndələrin fəaliyyəti, hüquq məsələlərini əhatə etmişdir.

Çıxışının sonunda rayon icra hakimiyyətinin başçısı Arif Seyidov rayona göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə rayon sakinləri adından minnətdarlığını ifadə edərək tam əminliklə bildirdi ki, Göygöl rayonunda əhalinin rifah halının daha da yaxşılaşdırılması, ictimai-siyasi fəallığının daha da yüksəldilməsi, rayonun sosial-iqtisadi cəhətdən yüksək inkişaf etmiş bir bölgəyə çevrilməsi istiqamətində həyata keçirilən tədbirləri daha da sürətləndirəcəkdir.

Sonda qərar layihəsi oxundu, respublika Prezidentinə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# ELMİ-PEDAQOJİ FƏALİYYƏTƏ VERİLƏN YÜKSƏK QİYMƏT



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən zəngin və şərəfli tarixə malik Gəncə Dövlət Universitetinin 80 illik yubileyi ərəfəsində müvafiq sərəncamlara əsasən 7 nəfərin Əməkdar müəllim, 1 nəfərin Əməkdar mühəndis fəxri adına layiq görülməsi, 15 nəfərin isə "Tərəqqi" medalı ilə təltif edilməsi ali təhsil müəssisəsinin professor-müəllim heyətinin səmərəli fəaliyyətinə göstərilən yüksək qiymət kimi dəyərləndirilib.

Son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə elm-təhsil sahəsində yürüdülən səmərəli siyasət və dərin islahatlar nəticəsində ölkədə təhsilin bütün pillələrində yüksək inkişafın və əsaslı keyfiyyət göstəricilərinin təmin edildiyini deyən rektor, professor Yusif Yusibov bildirib ki, bu illər ərzində GDU respublikamızın qərb bölgəsində fəaliyyət göstərən və təhsilin bütün sahələri üzrə yüksəkixtisaslı pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil müəssisəsi kimi görülmüş işlərə öz töhfəsini verib.

Cəmiyyətin formalaşmasında ali təhsilin rolundan danışan rektor onu da qeyd edib ki, qarşıdakı illərdə respublikamızın hərtərəfli inkişafı üçün hazırlanmış İnkişaf Konsepsiyası bütün sahələrdə olduğu kimi, təhsil sistemi qarşısında da mühüm strateji vəzifələr müəyyənləşdirib. Bu gün mütəxəssisləri - ali təhsil proqramlarının rəqabətqabilliyyətliliyi, müasirliyi və aktuallığı, məzunları - təhsilin keyfiyyəti, təhsil aldığı ali məktəbin nüfuzu və gələcək karyeraları, istehlakçıları - məzunların praktik bilik və bacarıqları, dövləti - ölkənin iqtisadi inkişafı və ali təhsilə qoyulan investisiyalar, məktəbliləri və onların valideynlərini isə keyfiyyətli ali təhsil verən universitet seçimi maraqlandırır. Son illərdə Gəncə Dövlət Universitetində keyfiyyətli təhsilin bütün parametrləri üzrə əldə edilmiş nailiyyətlər onu göstərir ki, bu təhsil ocağına yüksək balla daxil olan gənclərin sayı ildən-ilə artır.

Sonda universitetin professor-müəllim heyəti onların fəaliyyətinə verdiyi yüksək dəyərə görə praqmatik dövlət başçısı ölkə Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını ifadə ediblər.

**Z.CƏMŞİDOĞLU,**
**"Respublika".**

# Müstəqilliyimizin simvolu



Dövlət Bayrağı hər bir azərbaycanlının iftixar və and yeridir. Müstəqilliyimizi bərpa etdikdən sonra milli azadlığımızın rəmzi olan bayrağımız bu inkişafı, yüksək nüfuzu təmsil edir və Azərbaycan vətəndaşının, həm də bütün dünya azərbaycanlılarının şərəf və istinad qalasına çevrilib. Xalqımızın azadlıq məfkurəsini, milli-mənəvi dəyərlərini, imzalar içərisində imzasını, həm də nüfuzlu beynəlxalq iqtisadi, siyasi və sosial qurumlarda ölkələr içərisində mövqeyini ləyaqətlə, qürurla nümayiş etdirir.

Xalqımızın vətənə hədsiz sevincini, dövlətə və onun atributlarına böyük hörmətin təcəssümü kimi, hər il 2010-cu ildən başlayaraq ölkəmizdə Dövlət Bayrağı Günü təntənə, çoşqu ilə qeyd olunur.

Ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev dövlət rəmzləri haqqında demişdi: **"Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir".** Bəli, Vətənə böyük məhəbbət, ata-baba yurduna bağlılıq azərbaycanlılara xas olan nəcib bir xüsusiyyətdir. Üçrəngli, ay-ulduzlu bayrağımız vətən məhəbbətinin simvolu kimi hər zaman xalqımızın qürur mənbəyidir.

Hər bir müstəqil dövlətin tanınıb fərqlənməsi üçün öz dövlət rəmzləri olur. Azərbaycan dövlətinin də müstəqilliyini simvolizə edən öz bayrağı, gerbi və himni var. Bütün təhsil, səhiyyə və mədəniyyət ocaqlarında, ictimai yerlərdə dövlət rəmzlərimizin şəkli olan lövhələr qoyulur, stendlər asılır. Radio və telekanallarda, idman yarışlarında, eləcə də müxtəlif səpkili tədbirlərdə himnimiz mütəmadi olaraq səsləndirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyev 2010-cu ilin sentyabrında Dövlət Bayraq Meydanının təntənəli açılış mərasimində demişdir: **"Meydanın yaradılması haqqında sərəncam mənim tərəfimdən 2007-ci il noyabrın 17-də imzalanmışdır. O gündən iki il sonra, 2009-cu il noyabrın 17-də Azərbaycan Dövlət Bayrağı Günü təsis edilmişdir".**

Azərbaycan bayrağı, bizim üçrəngli bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsdiq edilmişdir. Məhz noyabrın 9-u Azərbaycanda bundan sonra hər il Azərbaycan Dövlət Bayrağı Günü kimi qeyd olunacaqdır. Hər iki sərəncamın məhz noyabrın 17-də imzalanmasının səbəbi də çox məntiqi və aydındır. Məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Azərbaycanda dövlət bayrağı kimi qaldırıldı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda dövlət bayrağı kimi təsdiq edildi. Eyni zamanda o vaxtkı Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı və tələb edildi ki, bu bayraq Azərbaycan dövlət bayrağı kimi qəbul edilsin.

Vurğulmaq lazımdır ki, bu gün ölkəmizin bütün bölgələrində, şəhər və rayonlarında, ən görünən, mərkəz yerlərdə bayraq meydanları salınır.

Müstəqilliyimiz bərpa edildikdən sonra milli azadlığımızın rəmzi olan bayrağımız bu inkişafı, yüksək nüfuzu təmsil edir və Azərbaycan vətəndaşının, həm də bütün dünya azərbaycanlılarının şərəf və istinad qalasına çevrilib.

Ölkəmizin tanıdılmasında, inkişafının səviyyəsinin dünyaya təqdimində idmanın da çox mühüm rolu vardır. Azərbaycanda idman sahəsində son dərəcə sürətli inkişaf müşahidə olunur. Nüfuzlu beynəlxalq yarışlarda Azərbaycan idmançıları uğurlu nəticələrə imza atır, yüksək tribunalarda üçrəngli bayrağımız qürurla dalğalandırılır.

Bəli, əminliklə demək olar ki, bizim bayrağımız mənəviyyatımız, milli təfəkkür və məfkurəmizin rəmzidir. Çox tezliklə bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada və işğal altında olan digər ərazilərdə dalğalanacaqdır. O günü biz hər an yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan bayrağına!

**Xudu RZAYEV,**
**Nərimanov rayonundakı**
**"Minera" şirkətinin təsisçisi.**

# Ağdam: eviniz isti, işığınız gur olsun



Cəbhə xəttində yaşayan insanlara dövlət tərəfindən göstərilən diqqət və qayğı davamlı xarakter alıb, silahların susmadığı təmas xəttindəki rayonda həyat öz axarı ilə davam edir, yaralarına məlhəm qoyan yurd yerində mütəşəkkillik, təşəbbüskarlıq, sabitlik hökm sürür.

Qeyd etmək yerinə düşər ki, son bir neçə ay ərzində rayonun həyatında böyük bir canlanma baş verir. Daxili imkanlardan səmərəli istifadə, səliqə-sahmanın yaradılması, yeni və müasir yolların, Muğam mərkəzinin tikintisi, xalçaçılıq fabrikinin istifadəyə verilməsi bu gün Ağdamın döyünən nəbzinə çevrilib.

Ermənistanın hərbi təcavüzü nəticəsində vaxtı ilə başqa yerlərə üz tutmuş insanlar indi geriyə, doğma yurd yerlərinə qayıdırlar. Aparılan quruculuq işlərində öz qüvvə və bacarıqlarını əsirgəmirlər. Rayon ərazisində məcburi köçkünlər üçün 19 qəsəbə salınıb. Yeni qəsəbələrin salınması üçün lazımi tədbirlər həyata keçirilir, yeni iş yerləri açılır, əhalinin məşğulluğu təmin edilir.

Mübaliğəsiz demək olar ki, rayonda həyata keçirilən tədbirlər, sosial-iqtisadi inkişaf, qəsəbələrin və kəndlərin görkəminin yaxşılığa doğru dəyişməsi, insanların fəallığının artması işğal altındakı yurd yerlərinə qayıtmağa daha böyük bir ümid yaradır. Yaralı və barıt qoxulu torpağın bu günü və uğurları ağdamlıları, sözün əsl mənasında, yeni bir mücadiləyə sövq edib.

Ərazisinin dörddə üç hissəsi Ermənistan tərəfindən işğal edilmiş rayonda son vaxtlar tikinti-quruculuq işlərinin həcmi xeyli artıb. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü, tövsiyəsi və tapşırığı əsasında aparılan yenidənqurma işləri, enerji, qaz, su təsərrüfatının qaydaya salınması, cəbhə bölgəsində infrastrukturun yenilənməsi əhalinin dərin razılığına səbəb olub.

Payız-qış mövsümü başlayan ərəfədə rayonun Mirzələr qış yatağında və Ergi adlanan ərazidə salınmış qəsəbədə Laçın, Ağdam və Şuşa rayonlarından olan məcburi köçkünlərin məskunlaşdığı yaşayış məntəqələrinə təbii qaz verilib. Bununla da Ağdam rayonunun bütün yaşayış məntəqələrinin qazlaşdırılması başa çatdırılıb.

Bu günlərdə yaşayış məntəqələrinə təbii qazın verilməsi münasibətilə keçirilən tədbirdə Ağdam Rayon İcra Hakimiyyətinin, SOCAR "Azəriqaz" İstehsalat Birliyinin təmsilçiləri, ictimaiyyət nümayəndələri və məcburi köçkünlər iştirak ediblər. Tədbirdə çıxış edənlər sakinləri təbrik edib, qaçqın və məcburi köçkünlərə göstərilən diqqət və qayğıdan, sosial problemlərinin həlli, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıblar.

Bildirilib ki, 388 fərdi evdən ibarət olan qəsəbələrin qazlaşdırılması üçün birpilləli sistem əsasında 35 min 72 metr müxtəlif diametrli polietilen və metal borularla daşıyıcı, paylayıcı qaz xətləri çəkilib, hər bir mənzilə sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Mərasimdə çıxış edən məcburi köçkünlər əhalinin sosial qayğılarının həllinə göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Tədarük məntəqələrinə tonlarla "ağ qızıl" yola salınır

İndi Ağdam rayonunda pambıq yığımı sürətlə aparılır, yetişdirilən məhsul itkisiz toplanır. Pambıqçılıq sahəsində öz ənənəsi olan Xındırıstan kəndində fermer Ramil Babayevə məxsus pambıq sahəsi bölgədə ən nümunəvi tarlalardan hesab olunur. Belə ki, 70 hektar sahədə bol məhsul yetişdirən fermer indiyədək hər hektardan orta hesabla 40 sentner məhsul götürüb.

Fermer deyir ki, dövlət tərəfindən pambıqçılığa göstərilən qayğıdan ruhlanaraq keçən il 60 hektarda pambıq becərdim. Hər hektardan 32 sentner olmaqla, 192 ton məhsul götürdüm.

Bu il isə pambıq əkinlərini bir qədər artırmışam. Əkin sahələrində aqrotexniki tədbirlərin ardıcıl və düzgün həyata keçirilməsi nəticəsində keçən ildəkindən də çox məhsul yetişib. Mövsümün sonunadək orta hesabla hər hektardan 45 sentnerdən yuxarı məhsul götürəcəyimə əminəm.

Ağdamlı fermer pambıqçılıqla yanaşı, baramaçılıqla da məşğul olur. Ötən il 3 qutu ipəkqurdu bəsləyərək, 252 kiloqram barama istehsal edən fermer Prezident İlham Əliyevin Sərəncamına əsasən kənd təsərrüfatının inkişafında xidmətlərinə görə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.



R.Babayev söhbət zamanı bildirdi ki, çəkdiyimiz zəhmət bir çox ailələrə ruzi-bərəkət qismət eləyir. Bu mükafat bütün əmək adamlarının zəhmətinə verilən ən yüksək qiymət kimi dəyərləndirilir və eyni zamanda, onlarda böyük ruh yüksəkliyi yaradır. İnsanlar başa düşürlər ki, zəhmət çəkən hər bir kəsin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir.

Fermer daha sonra dedi ki, əldə etdiyimiz nəticə və dövlətimiz tərəfindən göstərilən qayğıdan ruhlanaraq, baramaçılıqda olduğu kimi, pambıqçılıq sahəsində də yüksək göstəricilər əldə etməyə çalışıram.

Prezident İlham Əliyevin ölkəmizdə aqrar sektorun ənənəvi sahəsi olan pambıqçılığın inkişafı ilə əlaqədar verdiyi tövsiyə və tapşırıqlara müvafiq rayonda bu sahənin dirçəldilməsi istiqamətində mühüm addımlar atılıb. Rayonun iqlim şəraiti, sakinlərin pambıqçılıq sahəsində təcrübəsi məhsul istehsalını artırmaq üçün böyük stimul yaradır.

Pambıq tarlalarında yığım axşam düşənə qədər davam edir. Ən əsası da odur ki, sahibkarın, fermerin, xüsusi mülkiyyətçinin problemləri demək olar ki, tamamilə həll olunub. Ona görə də tədarük məntəqələrinə gün ərzində tonlarla "ağ qızıl" yola salınır.

**S.BABAYEV,**
**"Respublika".**

# Azərbaycan ədəbi dilinin tarixi xalqın milli mədəniyyətinin ən böyük xəzinəsidir




Azərbaycan ədəbi dilinin tarixi xalqımızın əsrlərin, qərinələrin hər cür təlatümlərindən, təzyiqlərindən qoruyub-saxladığı ən böyük xəzinəsi, sərvətidir. Azərbaycan ədəbi dilinin tarixi Azərbaycan türk xalqının ədəbi-bədii sözə vurğunluğu, ümumən, bitib-tükənməyən ekspressiv-emosional zövqünün, istedadının intellekt səviyyəsinin ilkin göstəricisidir. Xoşbəxtdir o şəxs ki, bu zəngin yatırımı — xalqın əsrlərlə ən böyük sərvəti kimi qoruyur, onun mahiyyətini duyub hiss edir, ömrünü onun elmi-nəzəri tədqiqinə həsr edir.

Azərbaycanın ümummədəni tarixində, ədəbi dili tarixində xalqın milli səviyyəsini göstərən bu elm sahəsi ilə məşğul olan alimlərimiz barmaqla sayıla bilən qədərdir. Professor Əbdüləzəl Dəmirçizadə, akademik Tofiq Hacıyev, professor Rəhilə Məhərrəmova, f.ü.e.d Muradxan Cahangirov bizim şərəfli keçmişimizdir. Biz bu gün onları ədəbi dil elmimizin müxtəlif sahələrində işıq saçan fundamental, sanballı elmi əsərləri, monoqrafiyaları ilə yaşadırıq, oxuyuruq, oxuduruq! Bu gün Azərbaycan ədəbi dili tarixi sahəsində yazıb-yaradan ardıcıl olaraq məşğul olan bir alimimiz vardır ki, o filologiya üzrə elmlər doktoru, professor Nizami Xudiyevdir. Prof. N.Xudiyev əlinə qələm alandan türkologiyanın digər sahələri ilə yanaşı, Azərbaycan ədəbi dili tarixi sahəsində də çalışmışdır.

Başqa cür ola bilməzdi! Axı o Azərbaycan ədəbi dilinin cəfakeş, böyük alim professor Ə.Dəmirçizadənin mühazirələrini dinləmiş, onun ruhunda inkişaf etmiş yetirməsidir.

Bu günlərdə professor N.Xudiyevin “Azərbaycan ədəbi dili tarixi” (Bakı, “Elm və Təhsil”, 2018, 632 s.) adlı fundamental, həm məzmunca, həm də həcm etibarilə sanballı monoqrafiyası çapdan çıxmışdır. Əsər əvvəlki nəşrlərdən fərqli olaraq, əlavələr, təkliflər və yeni ideyalarla zənginləşdirilərək təkmilləşdirilmişdir. Monoqrafiyada Azərbaycan ədəbi dilinin çoxəsrlik inkişaf tarixi, dili və üslubu araşdırılır, müvafiq inkişaf mərhələlərində ədəbi dillərin mövcud mənzərəsi Azərbaycan, rus, türk dillərində izlənilir, məntiqi ümumiləşmələr çıxarılır.

Monoqrafiya Azərbaycan ədəbi dilinin təşəkkül dövrü (qədim dövrlərdən XIII əsrə qədər), Azərbaycan ədəbi dilinin ümumxalq ədəbi dili əsasında formalaşması və inkişaf dövrü (XIII əsrdən XVII əsrə qədər) Azərbaycan ədəbi dilinin milli dil əsasında formalaşması və inkişaf dövrü (XVII əsrdən bu günə qədər) kimi hissələrdən ibarətdir. Müəllif girişdə Azərbaycan ədəbi dili tarixinin XX əsrin 30-cu illərindən başlayaraq mərhələlərlə tədqiq edilməyə başlamasını qeyd edərək, birinci mərhələni çox ədalətli olaraq “Əbdüləzəl Dəmirçizadə dövrü” adlandırır. Çünki Azərbaycan ədəbi dili sahəsində ilk mükəmməl əsəri (Azərbaycan ədəbi dili tarixi xülasələri) ilk dəfə 1938-ci ildə prof. Ə.Dəmirçizadə yazmışdır. Sonrakı mərhələlərdə ədəbi dil sahəsində akademik T.Hacıyev, f.ü.e.d. M.Cahangirov, prof. R.Məhərrəmov və başqa tədqiqatçılar ədəbi dil tarixinin öyrənilməsini inkişaf etdirsələr də, “30-50-ci illərin “metodologiyası” davam etdirilmişdir. Əvvəlki nəşrlərdən fərqli olaraq müəllif bu dəfə daha təkmil bir dövrləşdirmə təqdim edir:

I. Azərbaycan ədəbi dilinin təşəkkül dövrü (qədim dövrlərdən XIII əsrə qədər);

II. Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişaf dövrü (XIII əsrdən XVII əsrə qədər);

III. Azərbaycan ədəbi dilinin milli dil əsasında formalaşması və inkişafı dövrü (XVIII əsrdən bu günə qədər).

“Azərbaycan ədəbi dilinin təşəkkülü” dedikdə müəllif həm diferensasiya (Azərbaycan türkcəsinin ümumi türkcədən “ayrılması”), həm də inteqrasiya (“yerli”, “qıpçaq” və “gəlmə” Oğuz tayfa dillərinin “birləşməsi”) prosesi və həmin proseslərin qarşılıqlı əlaqəsini nəzərdə tutur. “Azərbaycan xalqı türk dünyasından təcrid olunmuş bir xalq deyildir, ona görə də Azərbaycan türkcəsinin tarixi ümumən türkcənin tarixinin tərkib hissəsidir və məsələnin məhz bu cür qoyuluşu onun düzgün metodologiya üzrə öyrənilməsi üçün şərt ola bilər”, deyən alim Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrünü də iki əsas qrupa ayırır: 1. XIII-XIV əsrlər və XV-XVI əsrlər. Tarixi ictimai-siyasi vəziyyətlə əlaqədar olaraq, ümumtürk ədəbi dilində XVI əsrdən sonra yeni dövrün başlanması diqqətə çatdırılır.

Müəllif isə Azərbaycan ədəbi dilinin milli dil əsasında formalaşıb inkişaf etməsini dörd mərhələyə ayırır:

1) XVII-XVIII əsrlər;

2) XIX əsr,

3) XX əsrin əvvəlləri;

4) XX əsrin 20-30-cu illərindən sonrakı mərhələ.

Prof. N.Xudiyev öz çoxillik təcrübəsinə əsaslanaraq belə nəticəyə gəlir ki, məhz bu mərhələlərdən sonra Azərbaycan ədəbi dilinin əsas meyarlara əsaslanan bir inkişaf yolu müəyyənləşir.

Birinci fəsildə Azərbaycan ədəbi dilinin XVIII əsrə qədərki təşəkkül dövrü araşdırılır. “Azərbaycan dilinin qədim tarixinə dair” bölməsində linqvistik və ekstralinqvistik faktlara əsaslanan müəllif Azərbaycan ədəbi dilinin Azərbaycan ümumxalq dili əsasında mürəkkəb etnolinqvistik proseslərdən keçərək təşəkkül tapdığını diqqətə çatdırır. Real həqiqətlərə əsaslanaraq göstərir ki, ümumən dil (eyni zamanda ədəbi dil) mahiyyət etibarilə etnik proseslərə sıx bağlıdır. Məşhur türk araşdırıcısı prof. Əhməd Cəfəroğlunun “müstəqil türk ədəbi dilləri ümumi bir türk ədəbi dili mühitinin məhsuludur” (11) fikrini təsdiqləyən prof. N.Xudiyev ümumtürk ədəbi dili tarixinin bu mərhələlərdən keçdiyini oxucuya təqdim edir:

I. Qədim türk dili — ən qədim zamanlardan e.ə V əsrə qədərki dövr.

II. Əski türk dili — e.ə V əsrdən XI-XII əsrlərə qədərki dövr.

III. Türki — XI-XIII əsrlərdən XVI-XVII əsrlərə qədərki dövr.

IV. Milli türk ədəbi dilləri — XVI-XVII əsrlərdən bu günə qədərki dövr.

Müəllif doğru olaraq “qədim türk dili”, eləcə də “qədim Azərbaycan dili” anlayışı deyərkən zəngin şifahi ədəbiyyat nümunələrini nəzərdə tutur. Əsərdə Azərbaycan dilinin mənşəyi ilə bağlı maraqlı fikirlər irəli sürülür. Müəllif hələ də davam edən bir konsepsiyaya — 50-ci illərdə türksoylu qəbilə və tayfalar Qafqazın gəlmə, qeyri-türk tayfalarını isə Qafqazın “yerli əhalisi” hesab edən konsepsiyaya öz kəskin etirazını bildirir, sonuncuların, habelə dünyanın ilk sakinləri hesab olunan şumer dil faktlarının türk dilləri ilə eyni fonomorfoloji vahidlərindən çıxış edir. Çoxsaylı şumer türk söz müvaziliyinə əsaslanaraq prototürk şumer əlaqələrinin mövcudluğunu qəbul edir və bu xalqların (və deməli dillərin) eyni vaxtda Ön Asiyada məskun olduqlarını təsdiqləyir.

Alim tarixi mənbələrdən çıxış edərək göstərir ki, I minilliyin ortalarından başlayaraq ümumtürk ədəbi dillərinin özünəməxsus xüsusiyyətləri xüsusi intensivliklə özünü göstərməyə başlayıb, bunun ardınca ədəbi dillər formalaşmağa doğru inkişaf götürüb. Qədim türk şeirinin mükəmməl şifahi örnəkləri meydana çıxıb: Məşhur dilçi, ədəbiyyatşünas alim Cavad Heyətin Azərbaycan folkloru təkcə tipologiyası ilə deyil, mənşəyi etibarilə də ümumtürk folklorunun tərkib hissəsi olması fikrini qəbul edən müəllif onunla həmrəy olduğunu bildirir. Azərbaycan şifahi ədəbi dilinin inkişafından bəhs edərkən qeyd edir ki, “Kitabi-Dədə Qorqud” dastanı Azərbaycan ədəbi dilinin təşəkkül dövründə yaranaraq “həm də təşəkkül prosesinin tarixi məntiqini faktlaşdırır” (s.99). Dastanın dilində oğuz elementlərinin üstünlük təşkil etdiyini vurğulayan müəllif, dastanın dilində xalq danışıq dilindən faydalanmalar genişləndikcə qıpçaq elementlərinin zəifləməsi qənaətinə gəlir. Əsərdə dastanın dili fonetik, leksik və qrammatik səviyyələrdə araşdırılır. Dastanın dili haqqında ilk dəfə böyük tədqiqat aparmış prof. Ə.Dəmirçizadənin nəticələri ilə həmfikir olduğunu bildirən müəllif, dastanın dil sistemi ilə bugünkü Azərbaycan dilində köklü fərqlər olmadığı həqiqətini təsdiqləyir.

Monoqrafiyanın II fəsli Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişaf dövrü XIII-XVII əsrlər ədəbi dilinin normaları fonetik, leksik və qrammatik baxımdan sistemli şəkildə araşdırılır, XIII-XIV əsrlərdə Azərbaycan ədəbi dilinin əsasən iki üslub üzrə — klassik və folklor üslubları üzrə inkişaf etməsi Azərbaycanın dahi şairlərinin dil materialları əsasında təhlil edilir. Klassik üslubdan danışarkən tədqiqatçı ilk növbədə Azərbaycan ədəbiyyatı və Azərbaycan ədəbi dili tarixində özünün ənənəsi və dil-üslub zənginliyi ilə diqqəti çəkən məsnəvi janrının nümunələri — “Dastani-Əhməd Hərami”, Yusif Məddahın, Mustafa Zəririn, Suli Fəqihin, Səyyad Həmzənin məsnəviləri, eləcə də, divan ədəbiyyatı (Qazi Bürhanəddin, İ.Nəsiminin “Divan”larının) dil materialları əsasında klassik üslubun səciyyəvi özəllikləri linqvistik təhlildən keçirilir, Azərbaycan ədəbi dilinin digər türk ədəbi dillərinin inkişafındakı tarixi mövqeyi işıqlandırılır, Azərbaycan ədəbi dilinin inkişaf səviyyəsi (ona məxsus bütün özəllikləri ilə), müqayisəedilməz üstünlükləri ilə ümumən mütəxəssislərə, oxuculara təqdim edilir.

Prof. N.Xudiyev Azərbaycan türk xalqının (və deməli, Azərbaycan türk dilinin ümumən türk xalqlarının) mədəniyyəti və dili tarixində Azərbaycanın dahi (klassik) şairlərinin ağır çəkisini onların ədəbi mövqeyini ümumtürk mədəniyyəti kontekstində Azərbaycan türklərinin “öz payını” və onların (Azərbaycan şairlərinin) digər qardaş türk xalqlarının ədəbi dillərinin inkişafına bu gün artıq etiraf olunan müsbət təsirini vurğulayır. Bu bir həqiqətdir ki, ümumtürk mədəniyyəti tarixində Azərbaycan türklərinin böyük “payı” vardır. Ancaq çox təəssüf ki, bu vaxta qədər o böyük “pay” kifayət qədər işıqlandırılmamışdır. [Əzizova Fəridə] “Klassik ərəb poeziyasında Azərbaycan şairləri: genezis, poetika” (VIII-XI əsrlər) Bakı, Elm, 2017) və “Ərdəbilli Azərbaycan şairləri” (525-ci qəzet, dekabr, 2017 rəy-resenziya).

II. fəslin “Folklor üslubu” hissəsində Qazi Bürhanəddinin folklor üslubunda yazdığı şeir növləri-tuyuqları, rübailəriləri və Əli adlı XIII əsr şairinin “Qisseyi- Yusif” əsərindən dil nümunələri əsasında araşdırılır. Sonuncunun “Kitabi-Dədə Qorqud” dastanının dil-üslub ənənəsini davam etdirdiyini Ə.Dəmirçizadə, Həmid Araslı, Əmir Nəcib və E.Əlibəyzadənin “Qisseyi-Yusif” əsəri haqqında söylədikləri ilə (“Azərbaycan mühitinin məhsulu” (H.Araslı), “Poemanın müəllifi azərbaycanlıdır, o əsəri Azərbaycan dilində yazmışdır” (E.Əlibəyzadə), “KDQ”la eyni mühitin məhsulu olan bu əsər orta əsrlərin başqa türk dillərinə aid abidələrində təsadüf edilməyən arxaik leksik qata malikdir, onlara “Kitabi-Dədə Qorqud”da təsadüf edilir” (Əmir Nəcib) kimi fikirləri ilə əsaslandırılır.

II fəslin “XV-XVI əsrlər Azərbaycan ədəbi dili” hissəsində dövrün ictimai- siyasi durumu: I Şah İsmayıl Xətainin və oğlu I Şah Təhmasibin hakimiyyəti illərində ölkədə həyata keçirilən daxili və xarici siyasəti qızılbaşlar dövründə milli siyasətlərə müsbət münasibətlərin inkişaf etməsi, dilə, ədəbiyyata, ümumən mədəniyyətə diqqət və s. haqqında maraqlı informasiyalar verilir (bunların bu gün gənc nəsil üçün çox böyük əhəmiyyəti vardır.) Bu hissədə XV-XVI əsr ədəbi dilinin normaları (fonetik, leksik, qrammatik) əsrin aparıcı şairləri Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Kişvəri, Həqiqi və başqa bu kimi söz ustadların söz xəzinəsindən nümunələri əsasında araşdırılır və belə nəticə çıxarılır ki, XV-XVI əsrlərdə fonetik, leksik, qrammatik kateqoriyaların işlənməsində bəzi üslubi məqamları nəzərə almasaq, demək olar ki, əsaslı fərqlər yoxdur.

Monoqrafiyanın III fəsli “Azərbaycan ədəbi dilinin milli dil əsasında formalaşması və inkişafı dövrü” adlandırılan XVII əsrdən bu günə qədər olan zaman kəsiyini əhatə edir: XVII əsrdən əvvəlki dövrün köhnə, XVII əsrdən sonrakı dövrün isə yeni dövr adlandırılması tövsiyə edilir.

Müəllif bu dövrü dörd mərhələyə ayırır:

I. XVII-XVIII əsrlər Azərbaycan ədəbi dil dövrü;

II. XIX əsr Azərbaycan ədəbi dil dövrü;

III. XIX əsrin əvvəllərində Azərbaycan ədəbi dil dövrü

IV. XX əsrin 20-30-cu illərindən bu günə qədər Azərbaycan ədəbi dil dövrü. Bu dövrlərlə əlaqədar müəllifin verdiyi istinadlar ədəbi dildə gedən prosesləri əks etdirir, öz milli istiqaməti ilə seçilən bu proseslər XIX əsrin sonlarında “Əkinçi” qəzetindən başlanır. Müəlliflik hüququna malik alim bu bölgünü məqbul hesab edir. Bu mərhələdə, təbii olaraq dövrün əsas şairləri M.P.Vaqif və M.V.Vidadinin bədii yaradıcılığı linqvo-poetik təhlil edilir. XVIII əsr Azərbaycan ədəbi dilinin və xalq yaradıcılığının orijinal nümunəsi olan “Şəhriyar” dastanının dili üzərində dayanıqlı təhlil verilməsini, prinsipcə, düzgün hesab edirik. Həqiqətən də “Şəhriyar” dastanı XVIII əsrdə yazıya alınmış və ədəbi dildə müşahidə olunan durumu əks etdirən əsər kimi dövrün ədəbi dilinin orijinal abidəsi olmaqla həm klassik nəsr dilinin, həm də folklor üslubunun səciyyəvi xüsusiyyətini tam əks etdirir. [“Şəhriyar” dastanının şeir dili XVII-XVIII əsrlərdə milli şeirimizin artıq normativləşməsini göstərir”, deyən müəllif tamamilə haqlıdır. “Ədəbi dilin milli dil əsasında formalaşması” bölümünün dastanın əsas mənbələrindən biri kimi tədqiqata cəlb edilməsi və onun ilk tədqiqatçısının da adının gündəmə gətirilməsi N.Xudiyevin prinsipial və ədalətli mövqeyini sərgiləyir.

III fəsildə “XIX əsr Azərbaycan ədəbi dili”nə geniş yer verilməsi və XVIII əsrin sonu - XIX əsrdə Azərbaycanda, onun əhatəsində cərəyan edən ictimai-siyasi və mədəni-elmi-maarifçilik məsələləri ilə bağlı məlumatların verilməsini nəinki ixtisasçılar üçün, ümumən, vətənini sevən, onun taleyini düşünən hər bir ziyalı, vətəndaş, ən əsası, böyüməkdə olan yeni nəsil, gənclər üçün vacib və maraqlı hesab edirik. Çünki ədəbi dil və onun tarixi bilavasitə xalqın ictimai-siyasi, mədəni-elmi-maarifçilik problemləri ilə üzvi surətdə bağlı olan proseslərlə həmahəng olaraq inkişaf edən tarixi-mədəni bir hadisədir. Prof. N.Xudiyev professional, öz işinin bilicisi olduğu üçün ədəbi dilin tarixinin xalqın mədəni intellektual səviyyəsi ilə nə dərəcədə bağlı olduğunu oxucusuna çatdırmaq məqsədini, habelə onun ən geniş oxucusu — geniş filoloq-tələbə kontingentinə hərtərəfli çatdırmağı qarşısına məqsəd qoymuş, (özü də quru tarixi mənbələrlə deyil, dövrün siyasi yazıçılarının, alimlərinin dil materialları, elmi əsərləri əsasında, səriştəli dilçi-tarixçi təcrübəsi ilə elmi təhlil yolu ilə təlqin etməyə nail olmuşdur (təcrübəli müəllim olaraq öz yolu, öz üslubu ilə!..). Prof. Nizami Xudiyevin elmi dilini (üslubunu) və şəksiz, auditoriya (şifahi dilin elmi üslubunu) dilini çox bəyənirəm: prof. Nizami Xudiyevin axıcı, xəlqi elmi üslubu, əminəm ki, auditoriyada da problemsiz qəbul olunur.

Yeri gəlmişkən, bu hissədə bədii üslubun bu vaxta qədər linqvistik tədqiqatlara cəlb edilməmiş abidələr (Qasım bəy Zakir, M.F.Axundov, S.Ə.Şirvani kimi dövrün ədəbi dilinin bütün uğur və çətinliyini çiyinlərində daşıyan şairlərin dil materialları, eləcə də elmi üslubu, əsasən XIX əsrdə qələmə alınmış “Qarabağname”lər, “Şəki xanlarının müxtəsər tarixi”, “Şəki xanları və onların nəsilləri” və s.) araşdırılır, bu abidələrdə xalq danışıq dilinin işlənmə potensialı göz önünə gətirilir. Haqlı qeyd olunur ki, klassik Azərbaycan dilində, yəni Nəsiminin, Füzulinin dövründə elmi əsərlər M.F.Axundovun səviyyəsində olmamışdır: klassik Azərbaycan dilində elmi əsərlər ərəb, fars və rus dillərində yazılırdı. M.F.Axundovun böyüklüyü ondadır ki, o, özünün elmi əsərlərini — traktat və məqalələrini həm də ana dilində (Azərbaycan - türk dilində) yazırdı. Bununla da, böyük vətəndaş- mütəfəkkir ana dilimizin ən mürəkkəb fikirləri, mühakimələri ifadə edə biləcək imkana malik olduğunu öz qələmi ilə təsdiqləyirdi. “M.F.Axundovun elmi üslubu XIX əsrdə elmi üslubun ümumi inkişafında mühüm mərhələ təşkil edir: - bu zaman o vaxta qədərki proseslər yekunlaşdırılır və prespektivlər müəyyənləşdirilirdi” deyən prof. N.Xudiyev XIX əsr Azərbaycan ədəbi dilinin formalaşmasında böyük ədibin mövqeyini mütəxəssis sözü ilə oxucuya ünvanlayır. Publisist üslubdan bəhs edərkən “Əkinçi” qəzetinin və onun baş redaktoru Həsən bəy Zərdabinin fəaliyyətinə xüsusi diqqət yetirilməsi oxucunu, xüsusən, mütəxəssisi tam qane edir. Çünki H.Zərdabinin və onun “Əkinçi” qəzetinin XIX əsr Azərbaycan ədəbi dilinin inkişafında əsas vasitələrdən olmasını müəllif, ömrünü M.F.Axundovun dilçilik fəaliyyətinə həsr etmiş mərhum f.ü.e.d “M.Cahangirovun elmi əsərlərinə istinad və müraciətlər etməsi xoş təsir bağışlayır” mülahizəsinə əsaslanaraq “Əkinçi qəzetini və onun cəfakeş baş redaktorunun (H.Zərdabi bu qəzetin həm də korrektoru idi) kəlamlarını nümunə gətirməklə oxucunu bu böyük ziyalının XIX əsr və ümumən Azərbaycan ədəbi dilinin inkişafında, onun dilimizin saflığı, ümumxalq dilini ümummədəni dil səviyyəsinə yüksəltmək uğrunda mübarizəsi ilə tanış edir. Həqiqətən də, H.Zərdabi xalqın ümumi səviyyəsini qaldırmaq kimi vacib işdə “Əkinçi” qəzetini əlində silah edib həm ana dilimizi elmi dil səviyyəsinə yüksəltməyi, eləcə də sadə xalq kütləsini savadlandırmağı qarşısına məqsəd qoymuşdu: Bu, H.Zərdabinin şəxsi qənaətidir ki, qəzet xalqı yeni informasiyalarla məlumatlandırmaqla bərabər, həm də savadlandırmalıdır.

III fəslin “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” hissəsində satirik- realistlərin (mollanəsrəddinçilərin) dili, lirik romantiklərin (füyuzatçıların) dili və maarifçilərin dili tədqiq edilir, onların məram və məqsədləri oxucuya oxunaqlı bir üslubda təqdim olunur. Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması və bu dövrdə xalqın həyatında baş verən ictimai-siyasi hadisələr, uğurlu yeniliklər, təhsilin hamı üçün vacib olması, ilk milli təhsil ocaqlarının və parlamentin yaradılması və əsasən, bunların milli yöndə təşkilinə üstünlük verilməsi, həmçinin şərqdə ilk müstəqil dövlətin xalqın mütərəqqi qüvvələrinin əli ilə qurulması — bütün bunlar xalqın məişətinə, mədəniyyətinə, ən əsası dilinə təsir edir, onun məzmununa millilik gətirir, dilin bünövrəsində olan xəlqiliyi üzə çıxarır, artırır, onu xəlqi, milli vasitələrlə zənginləşdirir.

XIX əsrin əvvəllərində Ana dili qarşısında borclarını dərindən dərk edən Azərbaycan ziyalıları ədəbi dilin normaları (fonetik, leksik, qrammatik), imla, əlifba, tərcümə məsələləri ilə mütəmadi məşğul olur, bunların xalqa hərtərəfli təlqin edilməsi üzərində böyük işlər gördürdülər. Ana dilimizin xəlqiləşməsi uğrunda mövcud mətbuat orqanları xüsusilə fəal mövqe tuturdu. Bu mənada “Əkinçi”, “Molla Nəsrəddin” ana dilimiz uğrunda açıq mübarizə aparırdı; “Nə üçün dilimizdə “ana” ola-ola bizim bəzi qəzetçilər, yazıçılar “madər” işlədirlər?” deyən böyük müəllim, ziyalı Firudun bəy Köçərli öz narahatlığını bildirirdi. Ədəbi mühitdə, mətbuatda olan imla hərc-mərcliyi ana dilinin müdafiə “ruporuna” çevrilmişdi: Mahmud bəy Mahmudbəyov bunları qəti şəkildə tənqid edirdi: ...Hər müəllim, hər qəzetçi bir imla ilə yazır...”, deyən müəllim nə qədər müasirdir!!! Axı orfoqrafiya hərcmərcliyi bu gün də yaşamaqdadır!

Bu tədqiqatda bir daha təsdiq olunur ki, XX əsrin əvvəllərində ədəbi dildə xəlqiləşmə prosesi daha da dərinləşir, ədəbi dildə bədii üslub əvvəlki əsrlərdə olduğu kimi, öz aparıcı mövqeyini davam etdirir, əsasən, də 3 istiqamətdə 1. Satirik-realistlərin (mollanəsrəddinçilərin) dili; 2. Lirik-romantiklərin (füyuzatçıların) dili; 3. Maarifçilərin dili istiqamətində. Monoqrafiyada hər üç istiqamətin səciyyəvi xüsusiyyətləri bu istiqamətləri təmsil edən Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabirin (mollanəsrəddinçilərin), Əli bəy Hüseynzadə, Hüseyn Cavid və Məhəmməd Hadinin (füyuzatçıların), Abbas Səhhət, Abdulla Şaiq və Süleyman Sani Axundovun (maarifçilərin) əsərlərindən gətirilən dil materialları əsasında təhlil edilir, onların ümumən ədəbi dilimizin tarixində tutduğu mövqeləri professional səviyyədə oxucuya təqdim edilir.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan ədəbi dilində publisist, elmi, rəsmi, epistolyar üslublar araşdırılır, onların özəllikləri təhlil edilərək mövqeyi müəyyən edilir.

Monoqrafiyanın III fəslinin “XX əsrin 20-30-cu illərindən sonrakı Azərbaycan ədəbi dili” bəhsində tariximizin “Sovet dövrü” adlanan mərhələsində Xalq yazıçısı Mirzə İbrahimovun “Azərbaycan dili” (Bakı, 1957) əsərindən gətirilən və həqiqəti əks etdirən sitat sovet dövründə ana dilimizin real vəziyyətinin göstəricisi kimi müasir oxucuda, xüsusən gənclərdə bəzən təəccüb doğursa da, bu bir ağ həqiqətdir. “Bu dövrdə” dilin yalnız məişətdə, ədəbi-elmi əsərlərdə yaşamadığı həyatın bütün sahələrində, o cümlədən, dövlət idarəçiliyində də geniş işlənmək imkanı əldə etdiyi vurğulanır (s.541). Prof. N.Xudiyev yazır: “Bu dövrdə milli əlaqələr və münasibətin genişlənməsi ilə xalqlar arasında mədəni-kütləvi kommunikasiyaya meyil artır və onların ümumi mədəniyyətlərinin yaxınlaşması, dil əlaqələrinin genişlənməsi özlüyündə hər bir dilin lüğət tərkibinin zənginləşməsi amillərindən biri kimi çıxış edir. Kütləvi informasiya vasitələri — qəzet, jurnal, radio, televiziya, kino, teatr və s. ədəbi dilin inkişafına, yazılı və şifahi nitqin cilalanmasına, habelə, yeni anlayışların yaranması ilə əlaqədar yeni sözlərin meydana gəlməsinə böyük təsir göstərir: yenilikləri əks etdirən sözlər dildə möhkəmlənir, keçmiş ictimai-siyasi anlayışlar fəallığını itirməyə başlayır”. Həqiqətən də müəllifin qeyd etdiyi kimi, Azərbaycan ədəbi dili bu dövrdə (sovet dövrü nəzərdə tutulur — S.Mehdiyeva) əvvəlki dövrlərin heç birində müşahidə olunmayan coşqun inkişaf yolu keçmişdir (s. 544). Bu dövrdə Azərbaycan ədəbi dilinin lüğət tərkibi ümumxalq dilinin leksik bazasında inkişaf edir. Bu isə, əslində, əvvəlki dövrlərin davamıdır. Bu mənada akademik T.Hacıyevin sözləri həqiqəti əks etdirir: “Ana dilinin dövlət dili kimi rəsmiləşdirilməsi — dövlət aparatına, idarə sisteminə daxil olması ilə Azərbaycan xalqı öz ədəbiyyatı və mənəviyyatı ilə yaşamağa, öz ruhu ilə ruhlanmağa imkan tapdı” (s. 550).

Bu dövrdə ədəbi dilin yeni sahələri, elmi-texniki terminologiya artıq beynəlmiləl xarakter alır. Azərbaycan ədəbi dilinin lüğət tərkibi SSRİ xalqları dilləri lüğət tərkibinin inkişafı ilə tipoloji oxşarlıq qazanır, dilimizin lüğət tərkibi lüğətlərdə, qrammatika kitablarında əks olunur, funksional üslublar inkişaf edir, zənginləşir; Alimlər (B.Çobanzadə, Y.Əliyev, M.İbrahimov və b.) Azərbaycan ədəbi dilimizin tarixində sovet dövrünü müstəqil mərhələ hesab edirlər. Prof. Ə.Dəmirçizadə sovet dövrünü Azərbaycan ədəbi dilinin əvvəlki dövrlərdə müyəssər ola bilmədiyi bir hüquqa malik olduğunu qeyd edir, göstərir ki, “bu dövr sazlı şeir dili ilə yazılı şeir dilinin qarşılıqlı surətdə bir-birilə zənginləşdiyi bir dövr idi”. Monoqrafiyada Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun nəşri olan “Azərbaycan ədəbi dili tarixi (sovet dövrü)” kitabında ana dilimizin inkişaf yolu, müəllifin fikrincə, fraqmental hiss olunsa da, sovet dövrü ədəbi dilimizdə baş verən fonetik-orfoqrafik, leksik-terminoloji və qrammatik (morfoloji-sintaktik) hadisələr araşdırılmış, sovet dövrü mətbuat üslubunun ədəbi dilimizin xəlqiliyi uğrunda apardığı mübarizə işıqlandırılmışdır.

Monoqrafiyada sovet dövründə Azərbaycan ədəbi dilinin funksional üslublar baxımından inkişafı, bu üslubların diferensasiyası (ayrılması) prosesinin güclənməsi, hər bir üslubun özünəməxsus dil (mədəni-linqvistik) bazasının formalaşması və onların konkret dil materialları əsasında inkişaf mənzərəsindən əsaslı şəkildə bəhs edilir. Doğru olaraq qeyd edilir ki, XX əsrin 20-30-cu illərində bədii üslubda böyük irəliləyişlər baş verdi, şeir, nəsr, dram dilinin gözəl nümunələri yarandı; elmi üslub çox inkişaf etdi, publisistik üslubun əhatə dairəsi genişləndi, rəsmi üslub daha çox ictimailəşdi, respublikamızın müstəqillik əldə etməsindən sonra Azərbaycan dilinin həqiqi mənada dövlət dili hüququ qazanması ana dilimizin bütün üslublar üzrə ümumxalq danışıq dili qayda-qanunlarından, canlı dildən faydalanmalar ədəbi dil normalarının təkmilləşməsinə də geniş imkanlar açdı. Bu isə özlüyündə dilin daha da demokratikləşməsinə, bu istiqamətdə inkişafına və zənginləşməsinə təminat verdi.

Monoqrafiyanın “Cənubi Azərbaycanda ədəbi dilimizin ümumi mənzərəsi” adlı bölümündə İranın cənub hissəsində yaşayan 35 milyonluq azərbaycanlıya farsca düşünmək və fikrini bu dildə ifadə etmək hissinin təlqin olunduğu bir dövrədək Azərbaycan ziyalısının “genetik yaddaşı və zəngin folklor fondu özünüqoruma instikti ilə birləşərək hər cür qadağaların ağrılarına tab gətirə bildi”yi qeyd olunur (s. 600). “Nizami Xudiyev ədəbi dilin lüğət tərkibinin şimal və cənubundakı təzahür formaları, tarixi-funksional fərqlərə baxmayaraq vahid orqanizm kimi mövcuddur” (s.614) fikri Cənubi Azərbaycanda yaşayan qardaşlarımızın gələcək taleyinə bizdə böyük əminlik yaradır!

Prof. Nizami Xudiyevin “Azərbaycan ədəbi dil tarixi” monoqrafiyası gəncliyimizə tədris və təlqin olunarsa, yetişməkdə olan nəslin ədəbi dilimizlə əlaqədar tam elmi fikirlərə yiyələnəcəyinə əminik.

**Sevil MEHDİYEVA,**
**filologiya üzrə elmlər doktoru,**
**professor, Əməkdar müəllim.**

# Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

**Ermənistan kütləvi informasiya vasitələrində verilmiş məlumata əsasən, həmin ölkənin müdafiə naziri vəzifəsinin icraçısı, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri David Tonoyan Azərbaycan tərəfinin əsirlərin dəyişdirilməsinə dair təklifi barədə mətbuatdan oxuduğunu və rəsmi təklif almadıqlarını bildirib.**

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bildirir ki, 2016-cı il aprelin 29-da Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) ünvanladığı məktubunda hazırda hər iki tərəfdə saxlanılan şəxslərin dərhal azad edilməsi və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda, cəsədlərin 3 gündən gec olmayaraq qaytarılması ilə bağlı saziş layihəsinin hazırlanmasını təklif edib. Dövlət Komissiyasından AZƏRTAC-a verilən məlumata görə, BQXK bu təklifin Ermənistan tərəfinə çatdırıldığını və saziş layihəsi üzərində müvafiq iş apardığını bildirib.

Bununla yanaşı, Dövlət Komissiyası Dağlıq Qarabağ münaqişəsi bölgəsində itkin düşmüş şəxslərin axtarışı, əsir-girovların azad edilməsi üzrə Beynəlxalq İşçi Qrupu (BİQ) ilə 2017-ci və 2018-ci illərdə Bakıda keçirdiyi görüşlər zamanı tərəflərdə saxlanılan şəxslərin qısa müddətdə “hamının-hamıya” prinsipi ilə azad edilməsi məsələsini müzakirə edib. Bu təklif son iki ildə Ermənistana və Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər etmiş BİQ həmsədrləri - Bernhard Klazen (Almaniya), Svetlana Qannuşkina (Rusiya) və Paata Zakeriaşvili (Gürcüstan) tərəfindən Ermənistanın müvafiq qurumlarına çatdırılaraq müzakirə edilib.

Son dəfə cari ilin oktyabr ayında Ermənistana və işğal olunmuş Dağlıq Qarabağa səfər edən BİQ həmsədrləri Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupu ilə telefon əlaqəsi saxlayaraq, bu ilin noyabr ayının sonunda Gürcüstanın Tbilisi şəhərində hər iki ölkənin Dövlət komissiyalarının görüşünün keçirilməsini planlaşdırdıqlarını və müzakirəyə çıxarılacaq mövzuları razılaşdırmaq istədiklərini bildiriblər.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası müzakirəyə çıxarılacaq əsas məsələnin hazırda tərəflərdə saxlanılan şəxslərin qısa müddətdə “hamının-hamıya” prinsipi ilə azad edilməsi mövzusu olacağı təqdirdə, Azərbaycan tərəfinin görüşə hazır olduğunu BİQ həmsədrlərinin diqqətinə çatdırıb.

**AZƏRTAC**

